RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 160 (10180) 4 sentyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan-Çin münasibətləri: strateji tərəfdaşlığın və çoxşaxəli əməkdaşlığın yüksəliş mərhələsi

Azərbaycan-Çin əməkdaşlığı ənənəvi sahələrlə məhdudlaşmır, həm də dövrün tələblərinə uyğun olaraq "yaşıl enerji", rəqəmsal iqtisadiyyat və süni intellekt kimi innovativ istiqamətləri də əhatə edir. Ölkəmizdə reallaşdırılan günəş və külək-elektrik stansiyalarının inşasında Çinin qabaqcıl texnologiyalarından geniş istifadə olunur.

Dövlətlərarası münasibətlərdə xalqlar arasında yaranan humanitar körpülər də önəm kəsb edir. İkitərəfli qaydada viza tələbinin ləğv edilməsi haqqında qəbul olunmuş qərar Bakı ilə Pekin arasında etimadın aydın göstəricisidir. Vizasız rejim nəticəsində həm işgüzar dairələrin gediş-gəlişi asanlaşıb, həm də qarşılıqlı turist axınında artım qeydə alınıb. Dövlətimizin başçısı bununla bağlı deyib: "Nəhayət, sonuncu məsələ dostluğun və qarşılıqlı etimadın əlaməti ilə bağlıdır. Bu da hər iki ölkəyə səfərlər üçün viza tələbinin aradan qaldırılmasıdır. İndi bizim vətəndaşlar hər hansı bir viza tələbi olmadan səyahət edə bilərlər".

Azərbaycan-Çin münasibətləri qlobal miqyasda sabitliyə, iqtisadi tərəqqiyə və təhlükəsizliyə xidmət edən nümunəvi əməkdaşlıq modelinə çevrilib. İki ölkə arasında imzalanan hər sənəd, atılan hər əməli addım və liderlərin nümayiş etdirdiyi güclü siyasi iradə bu tərəfdaşlığın gələcəkdə daha böyük uğurlara imza atacağını əminliklə söyləməyə imkan verir.

5

# Azərbaycan özü ərazi bütövlüyünü və suverenliyini təmin edib



## Prezident İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietronu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq ATƏT məkanında mövcud münaqişələrdən birinin həll olunduğunu və regionda davamlı sülhün təmin edildiyini deyərək, bu xüsusda dövlətimizin başçısını Azərbaycanla Ermənistan arasında sülh gündəliyində qazanılmış nailiyyətlər münasibətilə təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı 30 ilə yaxın müddətdə münaqişənin həllinə məsul olan ATƏT-in Minsk qrupu tərəfindən danışıqlar prosesində hər hansı bir nəticənin əldə edilmədiyini və BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin yerinə yetirilmədiyini təəssüflə vurğuladı.

Prezident İlham Əliyev dedi ki, Azərbaycan özü münaqişəyə hərbi-siyasi vasitələrlə son qoyub, ərazi bütövlüyünü və suverenliyini təmin edib.

Söhbət zamanı Avropanın bəzi parlament təsisatlarından fərqli olaraq, Azərbaycanın ATƏT Parlament Assambleyası ilə təmaslarından və siyasi dialoqdan məmnunluq ifadə edildi.

ATƏT Parlament Assambleyasının gündəliyində də bütün ATƏT məkanına balanslı münasibətin nümayiş etdirilməsinin önəmi vurğulandı.

Görüşdə mədəniyyətlərarası dialoqa toxunuldu, Azərbaycanın bu prosesdə rolu və töhfələri məmnunluqla qeyd edildi.

ATƏT Parlament Assambleyasının prezidenti Bakıda keçirilən "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının əhəmiyyətinə toxunaraq, minalar probleminin ATƏT Parlament Assambleyasının gündəliyində də müzakirə olunduğunu bildirdi.

# San Marino Respublikasının Regent Kapitanları zati-aliləri xanım Aliçe Minaya və cənab Vladimiro Selvaya

Zati-aliləri!

San Marino Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, məsul fəaliyyətinizdə uğurlar, San Marino xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2026-cı il*

# Cənubi Qafqazdakı yeni geosiyasi reallıq

## Regionun dinc və sabit gələcəyi üçün yaranan tarixi fürsətdir

Azərbaycan-Ermənistan münasibətlərində sülh gündəliyinin formalaşması region üçün yalnız iki dövlət arasında qarşıdurmanın başa çatması ilə xarakterizə edilmir. Bu proses Cənubi Qafqazın geosiyasi xəritəsinin, iqtisadi əlaqələrinin, nəqliyyat imkanlarının və təhlükəsizlik arxitekturasının yenidən qurulması potensialını ortaya qoyur. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə sülh sazişinin razılaşdırılmış mətninin paraflanması bu baxımdan mühüm tarixi mərhələ oldu. Sənəddə iki ölkə arasında dövlətlərarası münasibətlərin qurulması, sülhün möhkəmləndirilməsi və kommunikasiyaların açılması əsas istiqamətlər kimi müəyyənləşdirildi. Bu prosesin siyasi məntiqinə nəzər saldıqda mühüm bir həqiqət aydın görünür: Azərbaycanın irəli sürdüyü sülh gündəliyi hərbi qarşıdurmanın bitməsini özündə ehtiva edən dar çərçivəli yanaşma deyil. Bu gündəlik regionda yeni münasibətlər sisteminin yaradılmasını, dövlətlərin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməsini, sərhədlərin müəyyənləşdirilməsini və iqtisadi-kommunikasiya əlaqələrinin bərpasını nəzərdə tutur. Prezident İlham Əliyevin siyasi xəttinin mühüm xüsusiyyətlərindən biri də məhz bundan ibarətdir: Azərbaycan sülhü yalnız diplomatik sənəd kimi deyil, regionun gələcək inkişafının fundamental şərti kimi təqdim edir.



4

# Azərbaycan-ŞƏT əlaqələri yeni iqtisadi imkan və perspektivlərə yol açır

ŞƏT-ə üzv dövlətlərlə iqtisadi münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici iqtisadi əlaqələrinin şaxələndirilməsi və region ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi baxımından yeni imkanlar formalaşdırır. Həmin imkanların reallaşdırılması isə Azərbaycanın ŞƏT çərçivəsində iqtisadi əlaqələrinin mövcud vəziyyətinin və əsas inkişaf istiqamətlərinin araşdırılmasını ön plana çıxarır. Elə buradaca vurğulayaq ki, ŞƏT Avrasiya məkanında geniş iqtisadi potensiala malik dövlətləri bir araya gətirən regional platformadır. Təşkilata üzv ölkələrin böyük istehlak bazarları, zəngin təbii ehtiyatları və geniş nəqliyyat imkanları ŞƏT çərçivəsində iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradır.




Qeyd edək ki, Azərbaycanın ŞƏT ölkələri ilə iqtisadi əlaqələri son illər daha çox genişlənməkdədir. Xüsusilə Çin, Rusiya, Qazaxıstan və Özbəkistan kimi ölkələrlə ticarət, investisiya, enerji və nəqliyyat sahələrində əməkdaşlıq Azərbaycanın regiondakı iqtisadi əlaqələrinin genişlənməsinə şərait yaradır. Azərbaycanın tranzit mövqeyi və Orta dəhliz üzrə artan imkanları isə ŞƏT məkanı ilə Avropa arasında iqtisadi əlaqələrin inkişafında ölkənin rolunu gücləndirir.

3

# Milli Məclisin Sədri Sahibə Qafarova Cenevrədə yerləşən diplomatik korpus rəhbərləri və nümayəndələri ilə görüşdə çıxış edib

Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasında işgüzar səfərdədir. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində parlamentin Sədri Cenevrədə yerləşən diplomatik korpus rəhbərləri və nümayəndələri ilə görüşdə çıxış edib.





Spiker Sahibə Qafarova çıxışında beynəlxalq və regional parlament əməkdaşlığının genişləndirilməsi, çoxtərəfliliyin inkişaf etdirilməsində parlament diplomatiyasının rolu, parlamentlərin beynəlxalq qərar qəbuletmə prosesində rolunun artması və qlobal çağırışlara birgə yanaşmalara dair fikirlərini bölüşüb.

Parlamentin Sədri qeyd edib ki, müasir dövrdə münaqişələr, geosiyasi gərginlik, iqtisadi bərabərsizlik, iqlim dəyişiklikləri və sürətli texnoloji inkişaf kimi çağırışlar dövlətlərin beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlığını zəruri edir.

Bildirilib ki, çoxtərəfliliyin effektivliyi yalnız müxtəlif ölkələrin proseslərdə təmsil olunması ilə deyil, onların prioritetlərinin qərarların formalaşmasına real təsiri ilə ölçülməlidir. Bu baxımdan bütün regionların mövqelərinin eşidilməsi, bərabər iştirakın və qarşılıqlı etimadın təmin edilməsi mühüm əhəmiyyət daşıyır.

Parlament diplomatiyasının beynəlxalq münasibətlərdə xüsusi roluna diqqət çəkən Sahibə Qafarova parlamentlərin hökumətlərarası münasibətlərin mürəkkəbləşdiyi hallarda dialoqun qorunmasına, qarşılıqlı anlaşmanın gücləndirilməsinə və sülhə yönəlmiş təşəbbüslərin dəstəklənməsinə mühüm töhfə verdiyini vurğulayıb.

Spiker çıxışında davamlı inkişaf, qadınların və gənclərin ictimai-siyasi həyatda iştirakı, süni intellekt və rəqəmsal transformasiya, iqtisadi həmrəylik məsələlərini də diqqətə çatdırıb.

Qeyd edilib ki, beynəlxalq və regional parlament təşkilatları arasında əməkdaşlığın gücləndirilməsi təcrübə mübadiləsinə, ortaq problemlərə birgə həllərin tapılmasına və müxtəlif regionların prioritetlərinin qlobal gündəmdə daha dolğun əks olunmasına imkan yaradır.

Spiker çıxışı zamanı Milli Məclisin beynəlxalq fəaliyyəti, müxtəlif regional və beynəlxalq parlament təşkilatlarında iştirakından da danışıb. Bu çərçivədə parlamentin Sədri 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətindən söz açıb. O qeyd edib ki, Azərbaycanın bu təşkilata sədrliyi dövründə onun fəaliyyəti əhəmiyyətli dərəcədə inkişaf edib, institusional strukturları formalaşdırılıb və regional, eləcə də beynəlxalq parlament təşkilatları ilə əlaqələri genişləndirilib, şəbəkənin qərargahının Bakıda yerləşdirilməsi təmin edilib.

Bildirilib ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin keçirdiyi tədbirlər 70-dən çox ölkədən parlament rəhbərləri və deputatlar da daxil olmaqla, mindən artıq iştirakçını bir araya gətirib.

Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ) ən geniş təmsilçiyə malik beynəlxalq parlament təşkilatı olaraq, BMT ilə sıx əməkdaşlıq şəraitində qlobal çoxtərəfli sistemin parlament ölçüsünü təmin etdiyini bildirib.

Qeyd edilib ki, PAİ seçilmiş nümayəndələrin səsini beynəlxalq qərarqəbuletmə prosesinə gətirməklə demokratiyaya, parlament diplomatiyasına və xalqlar arasında dialoqun gücləndirilməsinə xidmət edir. PAİ parlamentlər arasında açıq dialoqu qorumaq, qarşılıqlı anlaşmanı gücləndirmək və sülhə aparan yolları dəstəkləmək üçün mühüm platformadır. PAİ-nin əsas gücü müxtəlif siyasi sistemlərə və regional baxışlara malik parlamentləri bərabərhüquqlu dialoq ətrafında birləşdirərək ümumi problemlərə birgə parlament yanaşmalarının formalaşdırılmasına imkan verməsidir.

Çıxışında iqlim maliyyəsi məsələsinə də diqqət çəkən spiker qeyd edib ki, bu proses proqnozlaşdırıla bilən, dayanıqlı və əlçatan olmalıdır. Bununla belə, resurslar ehtiyacı olanlara, onlara çıxışı praktiki olaraq qeyri-mümkün edən prosedurlar olmadan çatmalıdır. O, parlamentlərin bu prosesdə mühüm rol oynadığını bildirib.

Milli Məclisin Sədri 2024-cü ildə Bakıda keçirilən COP29-un bu baxımdan mühüm platforma olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, COP29 çərçivəsində Milli Məclisin və PAİ-nin yüzlərlə parlamentarini bir araya gətirərək iqlim dəyişikliyinə qarşı birgə cavab tədbirlərini müzakirə etmək üçün mühüm imkan yaratdığını bildirib.

Spiker çıxışında parlamentlərin inklüzivliyinin yalnız müxtəlif sosial qrupların və regionların təmsilçiliyi ilə məhdudlaşmadığını vurğulayıb. Bildirilib ki, əsl inklüzivlik parlamentlərin qərar qəbuletmə prosesində bərabər iştirak imkanlarının təmin olunmasını nəzərdə tutur. Bu baxımdan bərabər təmsilçilik prioritetlərin müəyyənləşdirilməsi, qərarların formalaşdırılması və qəbul edilən qərarlara təsir imkanları ilə ölçülməlidir.

Parlamentin Sədri qeyd edib ki, inkişaf hüququ da inklüziv və ədalətli idarəçilik yanaşmasının mühüm tərkib hissəsidir. Hər bir ölkənin öz milli prioritetlərinə və milli reallıqlarına uyğun inkişaf yolunu müəyyənləşdirmək, iqtisadi və institusional potensialını gücləndirmək, habelə vətəndaşlarının rifahını təmin etmək üçün bərabər imkanlara malik olması vacibdir.

Vurğulanıb ki, parlamentlər qanunvericilik fəaliyyəti, büdcə üzərində parlament nəzarəti, habelə beynəlxalq parlamentlərarası əməkdaşlıq vasitəsilə inkişaf hüququnun təmin olunmasına və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verirlər. Bu baxımdan parlamentlər arasında bərabərhüquqlu əməkdaşlığın gücləndirilməsi inklüziv inkişafın və daha ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşdırılmasına xidmət edir.

Çıxışına yekun vuran Milli Məclisin Sədri ortaq gələcəyə yönəlmiş əməkdaşlığın müasir çoxtərəfli sistemin əsas prinsiplərindən biri olduğunu vurğulayıb.

Görüşdə Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər təşkilatlar yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli , 70-ə yaxın ölkənin səfiri, daimi nümayəndəsi, nümayəndə heyətinin rəhbəri və digər rəsmilər iştirak edib.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova BMT-nin Cenevrə bölməsinin Baş direktoru ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində sentyabrın 3-də Cenevrədə BMT-nin Cenevrə bölməsinin Baş direktoru Tatyana Valovaya ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan-BMT münasibətlərinin tarixinə toxunularaq diqqətə çatdırılıb ki, gələn il Azərbaycanın BMT-yə üzvlüyünün 35 ili tamam olur. Söhbət zamanı ötən illər ərzində Azərbaycanın BMT-nin işinə verdiyi töhfələr, gördüyü işlər və keçirdiyi tədbirlər yüksək qiymətləndirilib.

Milli Məclisin Sədri çoxtərəfliliyin inkişaf etdirilməsində parlament diplomatiyasının rolu, onun əhəmiyyəti barədə fikirlərini bölüşüb. Spiker yeni yaradılmış və artıq güclü əsaslara malik olan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin gördüyü işlər barədə qarşı tərəfə məlumat verib. Eyni zamanda dünyanın ən böyük parlament təşkilatı olan Parlamentlərarası İttifaq (PAİ) barədə də danışılıb. Tərəflər BMT ilə PAİ arasında əlaqələrin inkişaf etdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Görüşdə demokratik idarəetmənin gücləndirilməsində parlamentlərin mühüm rolu və tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycan və ATƏT PA arasında əməkdaşlıq gündəliyi nəzərdən keçirilib

Sentyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Azərbaycan ilə ATƏT Parlament Assambleyası arasında əməkdaşlıq gündəliyində duran məsələlər, ATƏT məkanında mövcud təhlükəsizlik çağırışları, regionda vəziyyət, habelə Azərbaycan-Ermənistan sülh gündəliyi müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın ATƏT Parlament Assambleyası ilə əməkdaşlığa əhəmiyyət verdiyini, parlamentlərarası dialoqun ATƏT məkanında qarşılıqlı anlaşmanın, etimadın və əməkdaşlığın təşviqində mühüm rol oynadığını qeyd edib. Bu çərçivədə Azərbaycan Milli Məclisinin ATƏT PA çərçivəsində fəaliyyəti, qarşılıqlı səfərlər və müxtəlif səviyyələrdə keçirilən görüşlərin əlaqələrin inkişafına verdiyi töhfə vurğulanıb.

Nazir Azərbaycanın regionda sülhün və sabitliyin təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verib. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində əldə olunmuş irəliləyişlər və sülh gündəliyinin irəli aparılması ilə bağlı Azərbaycanın mövqeyi diqqətə çatdırılıb.

Digər məsələlərlə yanaşı, postmünaqişə dövründə bölgədə mövcud olan humanitar məsələlərə toxunan nazir Ceyhun Bayramov mina təhdidinin hələ də Azərbaycan üçün ciddi təhlükə olaraq qaldığını bildirib. Mina partlayışlarının insan həyatı üçün yaratdığı təhlükə ilə yanaşı, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına və regional inkişaf prosesinə mane olduğu qeyd edilib.

Nazir həmçinin itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinin müəyyənləşdirilməsinin mühüm humanitar məsələ olduğunu vurğulayıb.

Görüşdə Azərbaycanın regional və daha geniş beynəlxalq enerji təhlükəsizliyinə töhfəsi barədə də fikir mübadiləsi aparılıb. Azərbaycanın etibarlı enerji tərəfdaşı kimi Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rol, enerji mənbələrinin və marşrutlarının şaxələndirilməsi istiqamətində həyata keçirilən layihələr, habelə "yaşıl enerji" sahəsində təşəbbüslər barədə məlumat verilib.

Azərbaycanın nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkə kimi regional bağlantıların inkişafına verdiyi töhfə qeyd olunub. Orta dəhlizin inkişafı, Xəzər üzərindən Avropa ilə Mərkəzi Asiyanı birləşdirən nəqliyyat və logistika imkanlarının genişləndirilməsi, eləcə də regional kommunikasiyaların açılmasının sülh, sabitlik və iqtisadi inkişaf baxımından əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı həmçinin Azərbaycanın Orta Asiya ölkələri ilə strateji tərəfdaşlığının inkişaf edən dinamikasına da toxunulub. C5 formatının C6 formatına transformasiyasının əməkdaşlıq üçün yeni imkanlar yaratdığı qeyd edilib.

Görüşdə bundan əlavə, ATƏT məkanında mövcud çağırışlar və qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisdə ATƏT PA prezidenti ilə görüş



Sentyabrın 3-də Milli Məclisin ATƏT Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvləri ölkəmizdə səfərdə olan ATƏT PA-nın prezidenti Pere Joan Pons Sanpietro ilə görüşüblər.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin deputatı və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü Qaya Məmmədov Cənubi Qafqazda sülh prosesi, regional iqtisadi imkanlar və beynəlxalq dialoqun əhəmiyyəti barədə danışıb. O, Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasının tarixi bir nailiyyət olduğunu vurğulayıb.

Görüşdə iştirak edən Milli Məclisin deputatları, ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvləri Azay Quliyev, Sevinc Fətəliyeva və Tural Gəncəliyev Cənubi Qafqazda yaranan yeni geopolitik reallıqlar və regional nəqliyyat-logistika layihələri barədə fikirlərini bölüşüblər. ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro regional sülh quruculuğu prosesini yüksək qiymətləndirərək, təşkilatın yeni geopolitik reallıqlara uyğunlaşmasının və regionda dayanıqlı sülhün dəstəklənməsinin vacibliyini qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Parlament diplomatiyasının perspektivləri müzakirə olunub

Sentyabrın 3-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkəmizdə səfərdə olan ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı Səməd Seyidov Azərbaycan ilə təşkilat arasındakı əməkdaşlıq, regionda sülhün və etimad mühitinin möhkəmləndirilməsi məsələlərinə toxunub. O, ATƏT PA-nın regionda fəaliyyəti barədə fikirlərini bölüşüb, Azərbaycanın regionda sülh və sabitliyin təşviqində nümunəvi ölkə olduğunu diqqətə çatdırıb.

ATƏT Parlament Assambleyasının prezidenti Pere Joan Pons Sanpietro Azərbaycanın regiondakı geostrateji roluna, Avropa ilə iqtisadi-logistik əlaqələrə və parlament diplomatiyasının perspektivlərinə toxunaraq ölkəmizin geniş regionda qlobal iqtisadi layihələrin, logistikanın mərkəzində durduğunu və Avropanın etibarlı qaz təchizatçısı kimi mühüm rola malik olduğunu xüsusi vurğulayıb.

Pere Joan Pons Sanpietro Azərbaycanın Ermənistanla münasibətlərdə və regionda sülhün bərqərar olunmasında nadir bir model yaratdığını vurğulayıb.

Görüşdə iştirak edən ATƏT PA-nın vitse-prezidenti, bu təşkilatın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Luis Qraça, Milli Məclisin ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri Qaya Məmmədov və Azərbaycanın Avstriyadakı səfiri Kamil Xasiyev Cənubi Qafqazda formalaşan yeni geopolitik reallıqlar, Azərbaycanın təşkilatla əməkdaşlığı və parlament diplomatiyasının vacibliyi barədə fikirlərini bölüşüblər.

***"Azərbaycan"***

# Bakıda keçirilən IV Beynəlxalq Minatəmizləmə Konfransı başa çatıb

Bakıda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) və Birləşmiş Millətlər Təşkilatının (BMT) ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda keçirilən IV Beynəlxalq Minatəmizləmə Konfransı yekunlaşıb.





AZƏRTAC xəbər verir ki, tədbirin ikinci günündə çıxış edən Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bildirib ki, ölkəmiz üçün atəş səsləri kəsilsə də, minalar hələ də susmayıb. Məhz buna görə humanitar minatəmizləmə artıq, sadəcə, humanitar vəzifə deyil. O, sülh quruculuğu vəzifəsinə çevrilib. BMT-nin Sülh Quruculuğu Komissiyası da iki ay əvvəl mina təhlükəsi ilə mübarizəyə dair müzakirələr zamanı minatəmizləmənin sülh quruculuğu, barışıq və bərpa prosesinə imkan yaradan mühüm amil olduğunu qəbul edib: "Məntiq çox aydındır: Təhlükəsizliyi təmin olunmayan torpaq üzərində sülh qurmaq mümkün deyil. Bir ildən bir qədər əvvəl, 2025-ci il avqustun 8-də Azərbaycan və Ermənistan Vaşinqtonda tarixi addım atdı. Sülh sazişinin razılaşdırılmış mətni xarici işlər nazirləri tərəfindən paraflandı, liderlər isə Vaşinqton Birgə Bəyannaməsini imzaladılar. Bu sənəd keçmiş münaqişənin məngənəsindən artıq azad olan gələcəyə dair bir baxış ortaya qoydu".

Elçin Əmirbəyov vurğulayıb ki, Vaşinqton görüşündən sonra faktiki sülh şəraiti mövcuddur, ölkələr arasında hərbi eskalasiya baş verməyib. Hökumətlər və vətəndaş cəmiyyətləri arasında dialoq davam edib. Ticarət və iqtisadi əlaqələr qurulmağa başlayıb. Bağlantı və nəqliyyat layihələri üzrə işlər irəliləyir: "Cəmiyyətlər tədricən baxışlarını fərqli gələcəyə yönəltməyə başlayır. Bu, həqiqətən də, tarixi fürsətdir. Lakin sülh yalnız siyasi sazişlərlə yaranmır. Sülh yer üzündə özünü göstərməlidir. Azərbaycanda isə sülhün yer üzündə görünən reallığa çevrilməsinin qarşısındakı ən böyük maneələrdən biri məhz yerin altındadır".

Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Mariyana Kuyundziçin sözlərinə görə, təcrübə göstərir ki, mina fəaliyyəti ilə yenidənqurma prosesi paralel aparılmalıdır. Bərpa prosesi uzunmüddətli planlaşdırma, güclü institutlar və hər şeydən əvvəl, zərər çəkmiş icmaların ehtiyacları nəzərə alınmaqla həyata keçirildikdə daha səmərəli olur.

O bildirib ki, Azərbaycanda bu reallıq xüsusilə aydın görünür. Aİ Azərbaycanın bu sahədə həyata keçirdiyi genişmiqyaslı səyləri, xüsusilə ANAMA-nın, eləcə də ərazilərin tədqiqi və xəritələndirilməsi, təmizlənməsi, maarifləndirmə və zərər çəkmiş icmalara yardım proseslərində iştirak edən bütün əməliyyat subyektlərinin fəaliyyətini yüksək qiymətləndirir və təqdir edir: "Biz bu səylərdə Azərbaycanın yanında olmaqdan qürur duyuruq. Hazırda Aİ-nin Azərbaycana münasibətdə bu kollektiv öhdəliyin həcmi 22 milyon avroya çatıb. Aİ mina fəaliyyəti sahəsində Azərbaycan üçün etibarlı və uzunmüddətli tərəfdaş olaraq qalır. Humanitar minatəmizləməni təhlükəsiz yaşayış məntəqələrinin yaradılması və bərpa prosesinin mərkəzinə qoyan səyləri dəstəkləməyə sadiqik".

BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Erfan Ali çıxışı zamanı UN-Habitat üçün humanitar minatəmizləmənin şəhər siyasətinin, planlaşdırmanın və maliyyələşdirmənin fundamental tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, təmizlənmiş ərazilər olmadan səmərəli şəhər planlarının hazırlanması, təhlükəsiz mülkiyyət hüquqlarının təmin edilməsi, infrastruktur şəbəkələrinin fəaliyyəti, eləcə də məcburi köçkünlərin və qaçqınların ləyaqətlə öz evlərinə qayıtması üçün etibarlı imkanların yaradılması mümkün deyil: "Azərbaycan bu istiqamətdə mühüm addım ataraq "Mina təhlükəsi ilə mübarizə tədbirləri" adlı 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədini qəbul edib. Bu məqsəd mina çirklənməsini təhlükəsiz qayıdış, məskunlaşma, bərpa, rifah və sülh qarşısında kompleks və çoxşaxəli maneə kimi tanıyır. Bundan əlavə, Azərbaycanda minatəmizləmə fəaliyyəti daha geniş "Böyük qayıdış" proqramına, eləcə də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında davam etdirilən bərpa və yenidənqurma prosesinə sıx şəkildə inteqrasiya olunub".

Çinin Xarici İşlər Nazirliyinin Silahlara Nəzarət Departamentinin müşaviri Şen Çjan ölkəsinin humanitar minatəmizləmə sahəsində Azərbaycana dəstəyini bundan sonra da davam etdirəcəyini bildirib. O xatırladıb ki, ötən il Çin və Azərbaycan hökumətləri ikitərəfli humanitar əməkdaşlığın gücləndirilməsinə dair qarşılıqlı Anlaşma Memorandumu imzalayıb. Həmin memorandum çərçivəsində Çin Azərbaycana 2 milyon yuan məbləğində yardım göstərib.

Sonra tədbir panel müzakirələrlə və ölkə nümunələri üzrə təqdimatlarla davam edib.

Konfransın sonunda bəyanat qəbul edilib.

Qeyd edək ki, Bakının evsahibliyi etdiyi ikigünlük IV Beynəlxalq Minatəmizləmə Konfransında ümumilikdə 60 ölkədən 400-dən çox nümayəndə iştirak edib. İştirakçılar arasında bir sıra ölkələrin yüksəkvəzifəli şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən BMT-nin nümayəndələri və müxtəlif ölkələrin minatəmizləmə mərkəzlərinin rəsmiləri, habelə Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin vəzifəli şəxsləri təmsil olunublar.

Konfrans Azərbaycanın mina probleminin dünyaya çatdırılması, humanitar minatəmizləmə sahəsində beynəlxalq tərəfdaşlığın gücləndirilməsi, mina təhlükəsinin aradan qaldırılmasının təhlükəsiz və dayanıqlı bərpa prosesində rolu, innovativ yanaşma və qabaqcıl təcrübə mübadiləsi, həmçinin mina təhlükəsinin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin səfərbər edilməsi yolları ətrafında müzakirələrin aparılması məqsədi daşıyıb.

# Azərbaycandan Ermənistana növbəti dəfə dizel yanacağı tədarük edilib



**Azərbaycandan Ermənistana növbəti tədarük həyata keçirilib. AZƏRTAC xəbər verir ki, 17 çən vaqondan ibarət, çəkisi 989 ton olan dizel yanacağı Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.**

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 55 min tondan çox taxıl, 9 min tona yaxın gübrə, 1414 ton propan, 133 ton alüminium , 1114 ton kömür və 334 ton taxta göndərilib.

Eyni zamanda indiyədək Azərbaycandan Ermənistana 15 min tona yaxın dizel, 5 min tona yaxın Aİ-92 və Aİ-95 benzini ixrac olunub.

# ŞƏT coğrafiyasının qlobal logistika xəritəsində Naxçıvan önəmli strateji qovşaqdır

"Azərbaycanın dünya əhalisinin təxminən 40 faizini və qlobal iqtisadiyyatın dörddəbirindən çoxunu özündə cəmləşdirən, nüfuzlu və həlledici mərkəzlərdən birinə çevrilən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) ilə əməkdaşlığı və tədbirlərdə fəal iştirakı ölkəmizin Mərkəzi Asiya və bütövlükdə Avrasiya məkanında artan siyasi və diplomatik rolunun göstəricisidir. Bu fakt göstərir ki, Azərbaycan nəinki regionda, bütövlükdə Avrasiya məkanında etibarlı tərəfdaş kimi qəbul olunur".



Bu sözləri qəzetimizə açıqlamasında **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu ABDULLAYEV** deyib. O bildirib ki, Azərbaycanın formalaşdırdığı müasir nəqliyyat infrastrukturu ölkəmizə Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa arasında mühüm bağlantı rolunu oynamaq imkanı verir: "Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmlənməsi də bu imkanların daha səmərəli reallaşdırılması ilə müşayiət olunur. Ölkəmizin beynəlxalq platformalarda fəal iştirakında Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil xarici siyasət mühüm rol oynayır. Məhz bu siyasi kurs Azərbaycanın müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmasına, regional və qlobal proseslərdə fəal iştirakına imkan yaradır. Azərbaycanın Asiyanın aparıcı dövlətləri ilə siyasi, iqtisadi, nəqliyyat, enerji və humanitar əlaqələri əhəmiyyətli dərəcədə genişlənib. Bu baxımdan Şanxay Əməkdaşlıq Təşkilatı Azərbaycanın böyük önəm verdiyi mühüm beynəlxalq platformalardan biridir".

Həmsöhbətimiz vurğulayıb ki, Azərbaycan bu platformalarda siyasi məsələlərlə yanaşı, nəqliyyat, logistika, enerji və iqtisadi əməkdaşlıq imkanlarını da ön plana çıxarır. Xüsusilə Orta dəhlizin inkişafı Azərbaycanla Mərkəzi Asiya arasında əlaqələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır: "Azərbaycanın Xəzər dənizindən Mərkəzi Asiyanı Cənubi Qafqaz və Avropa ilə birləşdirən əsas tranzit mərkəzlərindən birinə çevrilməsi ölkənin geoiqtisadi əhəmiyyətini artırır. Ölkəmiz Çin və Mərkəzi Asiya dövlətlərinin Avropa bazarlarına çıxışını təmin edən Orta dəhlizin ən vacib mərkəzidir. Çinlə strateji tərəfdaşlığın dərinləşməsi və "Bir kəmər, bir yol" təşəbbüsünə Azərbaycanın verdiyi töhfələr ŞƏT məkanının Avropa, Türkiyə və Yaxın Şərqlə əlaqələndirilməsində Bakını geoiqtisadi mərkəzə çevirir. Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan bu zəncir qlobal ticarət dövriyyəsinin şaxələndirilməsinə xidmət edir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının aşırılma gücünün artırılması, müasir dəmir yolu və avtomobil magistrallarının istifadəyə verilməsi Azərbaycanın bu nəqliyyat şəbəkəsindəki çəkisini daha da artırır. Bununla, Azərbaycan ŞƏT məkanını digər Avrasiya məkanları, o cümlədən Türkiyə, Qara dəniz ölkələri və ümumilikdə Avropa ilə birləşdirən mühüm ölkə öz rolunu daha da gücləndirə bilər".

Arzu Abdullayev qeyd edib ki, Orta dəhlizin önəmli qolu Zəngəzur dəhlizi (Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu, TRIPP) Şərqlə Qərb, eləcə də Mərkəzi Asiya ilə Türkiyə və Avropa arasında birbaşa quru bağlantısını təmin etməklə regionun geoiqtisadi mənzərəsini köklü şəkildə dəyişmək gücünə malikdir: "Zəngəzur dəhlizi sadəcə iki ölkə arasında nəqliyyat bağlantısı deyil, bütövlükdə ŞƏT coğrafiyasının Cənubi Qafqaz və Türkiyə üzərindən dünya bazarlarına inteqrasiyasını sürətləndirən genişmiqyaslı layihədir. Bu marşrutun Vaşinqton sazişləri fonunda reallaşması regionda davamlı sülhün və iqtisadi tərəqqinin zəmanətinə çevrilir. Bu mühüm logistika zəncirində Naxçıvan Muxtar Respublikasının tutduğu mövqe strateji önəm kəsb edir. Naxçıvan Avrasiya bağlantı şəbəkəsinin və Zəngəzur dəhlizinin ən mühüm halqasıdır. Uzun illər blokada şəraitində yaşamış muxtar respublika bu layihələrin tam gücü ilə fəaliyyətə başlaması sayəsində regionun əsas logistik və ticarət habına çevrilmək imkanı qazanacaq. Naxçıvanın bu qlobal şəbəkəyə inteqrasiya olunması bölgəyə nəinki nəqliyyat və tranzit gəlirləri gətirəcək, həm də buraya xarici investisiyaların axınını sürətləndirəcək. Eyni zamanda yeni istehsal və xidmət sahələrinin yaranmasına, sosial-iqtisadi dirçəlişə böyük təkan verəcək. Muxtar respublikanın Türkiyə və İrana birbaşa çıxış imkanları ŞƏT ölkələrinin yük axınının optimal marşrutlarla paylanmasını təmin edəcək. Beləliklə, Naxçıvan Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində təhlükəsiz və səmərəli qovşaq rolu oynayacaq. Bu da regionda sülhün və sabitliyin möhkəmləndirilməsinə mühüm töhfə verəcək".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini əlavə edib ki, Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsindəki səmərəli fəaliyyəti, eyni zamanda Qazaxıstan, Özbəkistan və Qırğızıstanla qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, eləcə də Türkmənistanla dinamik inkişaf edən enerji və nəqliyyat-logistika əməkdaşlığı ölkəmizin Mərkəzi Asiya regionu ilə hüquqi, siyasi və institusional bağlarını köklü şəkildə möhkəmləndirir: "Bu çoxtərəfli regional inteqrasiya xəttinin mühüm zirvə nöqtəsi kimi 2025-ci ilin noyabrında Azərbaycanın Mərkəzi Asiya dövlət başçılarının Məşvərət görüşləri formatına tamhüquqlu iştirakçı olaraq qoşulması ölkəmizin və Mərkəzi Asiya dövlətlərinin koordinasiyalı fəaliyyət imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Bu, Xəzərin hər iki sahilində yerləşən ölkələrin ümumi iqtisadi maraqlarını, nəqliyyat-tranzit potensialını və regional təhlükəsizlik arxitekturasını vahid platformada birləşdirərək Avrasiya qitəsinin mərkəzində yeni güc və əməkdaşlıq qütbünün formalaşmasını şərtləndirir".

Müsahibimizin sözlərinə görə, digər mühüm istiqamət enerji sahəsində əlaqələrdir: "Azərbaycanın Xəzər hövzəsindəki enerji potensialı və Avropa enerji bazarlarına çıxışı ŞƏT məkanının enerji resursları ilə Avropa arasında əlavə bağlantı imkanları yaradır. Enerji mənbələrinin və ixracı yollarının şaxələndirilməsi Azərbaycanın ŞƏT qarşısında əsas üstünlüklərindən sayılır. Ölkəmizin enerji məsələləri kontekstində ŞƏT çərçivəsində üstünlüyü enerji istehsalının miqyasında deyil, enerji marşrutlarının şaxələndirilməsindədir. Azərbaycan enerji resurslarının Xəzər və Cənubi Qafqaz üzərindən Avropa bazarlarına çıxarılmasında mühüm bağlantı ölkəsidir. Eyni məntiq rəqəmsal infrastruktur və "Rəqəmsal İpək yolu" layihələrinə də aiddir. Nəticə etibarilə, Azərbaycanın əsas strateji üstünlüyü ŞƏT məkanının bir hissəsi olmaqdan daha çox, Çin və Mərkəzi Asiyanı Xəzər, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropa ilə əlaqələndirən kəsişmə nöqtəsi olmaqdır. Bu yanaşma Azərbaycanın regional tranzit ölkəsindən Avrasiyanın geoiqtisadi bağlantı mərkəzlərindən birinə çevrilməsi strategiyasını gücləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-ŞƏT əlaqələri yeni iqtisadi imkan və perspektivlərə yol açır

Bu gün Azərbaycan Avropa ilə Asiyanı birləşdirən əlverişli coğrafi mövqeyi, zəngin enerji resursları və inkişaf etmiş nəqliyyat infrastrukturu ilə Avrasiya regionunda iqtisadi və nəqliyyat əlaqələrinin inkişafında mühüm rol oynayır. Bu baxımdan, Avrasiya məkanında mühüm iqtisadi potensiala malik olan Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Azərbaycan üçün regional əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətli platformalardan biridir.




ŞƏT-ə üzv dövlətlərlə iqtisadi münasibətlərin inkişaf etdirilməsi Azərbaycanın xarici iqtisadi əlaqələrinin şaxələndirilməsi və region ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi baxımından yeni imkanlar formalaşdırır. Həmin imkanların reallaşdırılması isə Azərbaycanın ŞƏT çərçivəsində iqtisadi əlaqələrinin mövcud vəziyyətinin və əsas inkişaf istiqamətlərinin araşdırılmasını ön plana çıxarır. Elə buradaca vurğulayaq ki, ŞƏT Avrasiya məkanında geniş iqtisadi potensiala malik dövlətləri bir araya gətirən regional platformadır. Təşkilata üzv ölkələrin böyük istehlak bazarları, zəngin təbii ehtiyatları və geniş nəqliyyat imkanları ŞƏT çərçivəsində iqtisadi əməkdaşlığın inkişafı üçün əlverişli şərait yaradır.

Qeyd edək ki, Azərbaycanın ŞƏT ölkələri ilə iqtisadi əlaqələri son illər daha çox genişlənməkdədir. Xüsusilə Çin, Rusiya, Qazaxıstan və Özbəkistan kimi ölkələrlə ticarət, investisiya, enerji və nəqliyyat sahələrində əməkdaşlıq Azərbaycanın regiondakı iqtisadi əlaqələrinin genişlənməsinə şərait yaradır. Azərbaycanın tranzit mövqeyi və Orta dəhliz üzrə artan imkanları isə ŞƏT məkanı ilə Avropa arasında iqtisadi əlaqələrin inkişafında ölkənin rolunu gücləndirir.

Bu əlaqələrin miqyasını son illərin ticarət göstəriciləri də aydın nümayiş etdirir. 2025-ci ilin yekunlarına görə, Azərbaycanın əsas ŞƏT tərəfdaşları sırasında Çin, Rusiya, Qazaxıstan, Özbəkistan və Hindistan mühüm yer tutur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsində Rusiyanın payı 10 faiz, Çinin payı 9,9 faiz, Özbəkistanın payı 1,6 faiz, Qazaxıstanın payı1,4 faiz, Hindistanın isə 0,8 faiz təşkil edib.

Faktlar Azərbaycanın ŞƏT ölkələri ilə iqtisadi əlaqələrinin kifayət qədər geniş coğrafiyaya malik olduğunu göstərməklə yanaşı, həmin əlaqələrin daha çox inkişaf etdirilməsi üçün mövcud potensialı da ortaya qoyur. Ona görə də Prezident İlham Əliyevin ŞƏT-in Zirvə toplantısında iştirakı Azərbaycanla təşkilat arasında əməkdaşlığın inkişafı baxımından mühüm addım kimi qiymətləndirilə bilər. Dünya iqtisadiyyatının dörddəbirini təmsil edən bu nəhəng platforma ilə tərəfdaşlıq Azərbaycanın qlobal diplomatik çəkisini artırmaqla yanaşı, yeni investisiya imkanlarının cəlb edilməsi, "yaşıl enerji" layihələrinin təşviqi və Asiya bazarları ilə iqtisadi-ticarət əlaqələrinin dərinləşdirilməsi baxımından strateji perspektivlər açır.

İqtisadçı ekspert, Milli Məclisin deputatı Vüqar Bayramov da məsələyə diqqət çəkərək, dövlət başçısının Zirvə toplantısında iştirakının Azərbaycan üçün yeni iqtisadi imkanlar yarada biləcəyini qeyd edir. Onun sözlərinə görə, İlham Əliyevin Zirvə görüşündə iştirakı və müzakirə edilən məsələlər Azərbaycanın ŞƏT-ə üzv olan bir sıra ölkələrlə iqtisadi əlaqələrini daha da gücləndirəcək: "Nəzərə alaq ki, bu, təşkilatın 25 illiyinə həsr olunmuş bir tədbirdir. 17 dövlətin rəhbərinin iştirak etdiyi böyük və nüfuzlu bir tədbirdir. Və təbii ki, bu baxımdan da görüşlər və müzakirələr Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə münasibətlərinə birbaşa təsir göstərəcək. Bu, sərmayənin cəlb edilməsi, xüsusən ticarət dövriyyəsinin artırılması baxımından da bir imkandır".

ŞƏT ölkələri ilə iqtisadi əlaqələrin genişləndirilməsi baxımından Azərbaycanın nəqliyyat və logistika imkanları da xüsusi diqqət çəkir. Bu imkanlar sırasında isə Orta dəhliz mühüm yer tutur. Xüsusilə Orta dəhlizin imkanları ŞƏT ölkələri üçün böyük əhəmiyyət daşıyır. Çindən Avropaya qədər uzanan bu marşrut Mərkəzi Asiya ölkələrini Azərbaycan vasitəsilə Avropa bazarları ilə birləşdirir. Bu baxımdan, Azərbaycan Orta dəhlizin əsas və strateji halqalarından biridir.

Təbii ki, Azərbaycanın ŞƏT ölkələri ilə əməkdaşlığı yalnız mövcud əlaqələrin genişləndirilməsi deyil, yeni bazarlara çıxış və əlavə investisiyaların cəlb edilməsinə görə də əhəmiyyətlidir. Qarşıdakı dövrdə bu imkanlardan səmərəli istifadə Azərbaycanın xarici iqtisadi əlaqələrinin bir qədər də şaxələndirilməsinə və Avrasiya məkanında iqtisadi əməkdaşlığının güclənməsinə töhfə verə bilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Cənubi Qafqazdakı yeni geosiyasi reallıq

## Regionun dinc və sabit gələcəyi üçün yaranan tarixi fürsətdir

**Cənubi Qafqaz uzun illər xəritədə üç dövlətin yerləşdiyi coğrafiya kimi deyil, böyük güclərin maraqlarının toqquşduğu mürəkkəb geosiyasi düyün kimi xarakterizə olunub. Bu regionun adı onilliklər ərzində münaqişə, işğal, təhlükəsizlik böhranı, bağlı sərhədlər və bloklanmış kommunikasiyalarla yanaşı çəkilib.**

Tarixdə elə məqamlar olur ki, regionun gələcəyini keçmişin reallıqlarından çox yeni siyasi iradə müəyyənləşdirməyə başlayır. Cənubi Qafqaz hazırda məhz belə bir mərhələdən keçir.

Azərbaycan-Ermənistan münasibətlərində sülh gündəliyinin formalaşması region üçün yalnız iki dövlət arasında qarşıdurmanın başa çatması ilə xarakterizə edilmir. Bu proses Cənubi Qafqazın geosiyasi xəritəsinin, iqtisadi əlaqələrinin, nəqliyyat imkanlarının və təhlükəsizlik arxitekturasının yenidən qurulması potensialını ortaya qoyur. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın iştirakı ilə sülh sazişinin razılaşdırılmış mətninin paraflanması bu baxımdan mühüm tarixi mərhələ oldu. Sənəddə iki ölkə arasında dövlətlərarası münasibətlərin qurulması, sülhün möhkəmləndirilməsi və kommunikasiyaların açılması əsas istiqamətlər kimi müəyyənləşdirildi. Bu prosesin siyasi məntiqinə nəzər saldıqda mühüm bir həqiqət aydın görünür: Azərbaycanın irəli sürdüyü sülh gündəliyi hərbi qarşıdurmanın bitməsini özündə ehtiva edən dar çərçivəli yanaşma deyil. Bu gündəlik regionda yeni münasibətlər sisteminin yaradılmasını, dövlətlərin bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət etməsini, sərhədlərin müəyyənləşdirilməsini və iqtisadi-kommunikasiya əlaqələrinin bərpasını nəzərdə tutur. Prezident İlham Əliyevin siyasi xəttinin mühüm xüsusiyyətlərindən biri də məhz bundan ibarətdir: Azərbaycan sülhü yalnız diplomatik sənəd kimi deyil, regionun gələcək inkişafının fundamental şərti kimi təqdim edir. Vaşinqtonda paraflanan sənəddə kommunikasiyaların açılmasının sülh, sabitlik və rifaha xidmət etməsi xüsusi vurğulanırdı. Sənəddə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Ermənistan ərazisindən keçən bağlantının qarşılıqlı fayda prinsipi əsasında təmin olunmasının nəzərdə tutulması isə sülh prosesinin iqtisadi və nəqliyyat ölçüsünü daha da ön plana çıxarırdı.

Əgər Azərbaycan-Ermənistan sülh prosesi tam reallaşarsa, Cənubi Qafqazda ən böyük dəyişiklik psixoloji və siyasi xəritədə baş verəcək. Uzun müddət regionun dövlətlərini bir-birindən ayıran qarşıdurma məntiqinin yerini qarşılıqlı iqtisadi maraqların məntiqi tutacaq. Artıq bunun ilk əlamətləri görünməkdədir. 2026-cı il avqustun 31-də Bişkekdə Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan arasında keçirilmiş görüşdə Azərbaycan neft məhsullarının Ermənistana ixracı, üçüncü ölkələrdən Ermənistana gedən taxıl və digər yüklərin Azərbaycan ərazisindən tranziti, iki ölkə arasında ticarət əlaqələrinin qurulması sülhün praktiki dividendləri kimi qiymətləndirilib. Tərəflər həmçinin biznes əlaqələrinin genişləndirilməsi, enerji və ticarət əməkdaşlığının inkişafı məsələlərini müzakirə ediblər. Bu faktın özünü mühüm siyasi mesaj saya bilərik. Çünki dövlətlər arasında iqtisadi münasibətlər genişləndikcə qarşıdurmanın, müharibələrin iqtisadi və siyasi qiyməti artır, əməkdaşlığın dəyəri isə yüksəlir. Beləliklə, sülh yalnız siyasi sənəd olaraq qalmır, gündəlik həyatın və iqtisadi münasibətlərin bir hissəsinə çevrilir.

Azərbaycanın regiondakı əsas marağı aydındır: sabit, təhlükəsiz və inkişaf edən Cənubi Qafqaz. Bu yanaşmada ölkəmizin məqsədini yalnız öz təhlükəsizliyinin təmin edilməsi ilə məhdudlaşdırmaq düzgün olmaz. Bakı üçün regional sabitlik Azərbaycanın iqtisadi və nəqliyyat potensialının tam reallaşdırılması baxımından da strateji əhəmiyyət daşıyır. Azərbaycan son illər özünü Şərq ilə Qərb arasında nəqliyyat və enerji bağlantılarının mühüm halqasına çevirib. Regionda sülhün bərqərar olması isə bu imkanların daha geniş coğrafiyaya açılmasına şərait yaradar. Zəngəzur istiqamətində kommunikasiyaların açılması, Naxçıvanla əlaqələrin genişlənməsi və TRIPP layihəsinin reallaşması Cənubi Qafqazı beynəlxalq nəqliyyat sisteminin daha mühüm hissəsinə çevirə bilər. Məhz buna görə sülh Azərbaycanın baxışında son nöqtə deyil, yeni regional inkişafın başlanğıcıdır.

Ermənistanın Baş naziri Nikol Paşinyanın Bişkekdə ŞƏT-in "SCO Plus" formatında səsləndirdiyi fikirlər də regionda baş verən dəyişikliklərin miqyasını göstərir. N.Paşinyan Ermənistanın "çoxqütblü xarici siyasət" yürütməsini ölkənin suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi vasitəsi kimi təqdim edib. O bildirib ki, Ermənistan Azərbaycan və Türkiyə ilə dövlətlərarası münasibətlərin qurulmasına və kommunikasiyaların açılmasına doğru irəliləyir. Bu prosesin mühüm elementlərindən biri kimi TRIPP layihəsini göstərib. Burada diqqətçəkən məqam yalnız Ermənistanın xarici siyasət kursu deyil, eyni zamanda bu ölkənin rəhbərliyi də artıq regional kommunikasiyaların açılmasını və Azərbaycanla münasibətlərin normallaşdırılmasını regionun gələcəyi baxımından praktiki zərurət kimi təqdim edir. Bu isə Cənubi Qafqazda yeni siyasi reallığın formalaşdığını göstərən əlamətlərdən biridir.

Təbii ki, Cənubi Qafqazda baş verən proseslərə yalnız Bakı və İrəvanın münasibətləri prizmasından baxmaq düz olmazdı. Region həm Rusiya, həm Türkiyə, İran, ABŞ, Avropa İttifaqı, həm də Çin və digər aktorların maraq dairəsindədir. Sözsüz ki, hər bir güc mərkəzinin öz geosiyasi, iqtisadi və təhlükəsizlik maraqları mövcuddur. ABŞ regionda yeni nəqliyyat imkanlarının və TRIPP layihəsinin reallaşmasında maraqlıdır. Avropa İttifaqı Cənubi Qafqazda sabitlik və bağlantı imkanlarının genişlənməsini dəstəkləyir. Türkiyə Azərbaycanla strateji müttəfiqlikdən irəli gələn regional nəqliyyat və iqtisadi imkanların genişlənməsində maraqlıdır. Rusiya və İran isə regionda yeni kommunikasiya arxitekturasının öz milli təhlükəsizlik və iqtisadi maraqlarına mümkün təsirlərini nəzərə alırlar. Burada fundamental bir fərq var: böyük dövlətlərin hər birinin öz maraqları olsa da, region dövlətlərinin marağı, ilk növbədə, öz təhlükəsizliklərini və inkişaflarını təmin etməkdir. Azərbaycanın yanaşmasının əsas üstünlüyü də məhz bu nöqtədə ortaya çıxır. Bakı regionda hər hansı üçüncü tərəfin maraqlarının deyil, ilk növbədə, Cənubi Qafqaz xalqlarının sülh və inkişaf ehtiyaclarının təmin edilməsini ön plana çəkir.

Vaşinqton razılaşmasının mühüm istiqamətlərindən biri TRIPP - "Trump Route for International Peace and Prosperity" layihəsidir. Bu layihənin əhəmiyyəti təkcə Azərbaycanla Naxçıvan arasında bağlantının yaradılması ilə məhdudlaşmır, eyni zamanda kommunikasiyaların açılması daha geniş regional nəqliyyat sisteminin formalaşmasına təkan verə bilər. Nikol Paşinyanın ŞƏT platformasında səsləndirdiyi fikir də məhz bu baxımdan maraqlıdır. O, yeni nəqliyyat imkanlarının Şərq-Qərb istiqaməti ilə yanaşı, Fars körfəzi və Qara dəniz arasında Cənub-Şimal bağlantısını da gücləndirə biləcəyini bildirib. Deməli, söhbət yalnız iki ölkəni birləşdirən yoldan yox, həm də yeni regional iqtisadi coğrafiyanın yaranmasından gedir.

Avqustun 31-də Bişkekdə keçirilən görüş göstərdi ki, proses artıq siyasi bəyanatlar mərhələsində deyil. Tərəflər sərhədlərin delimitasiyası, TRIPP üzrə praktiki addımlar, ticarət, enerji və biznes əlaqələrinin genişləndirilməsi kimi konkret məsələləri müzakirə edirlər. Liderlər birbaşa təmasların davam etdirilməsi və davamlı sülhün möhkəmləndirilməsi barədə razılığa gəliblər. Bu, Cənubi Qafqazda yeni mərhələnin başlandığını göstərir: artıq dövlətlər arasında yalnız siyasi məsələlər müzakirə olunmur, qarşılıqlı ticarət, iqtisadi əlaqələrin genişləndirilməsi və konkret əməkdaşlıq layihələrinin həyata keçirilməsi istiqamətində də real addımlar atılır.

Əlbəttə, sülh yolunda həllini gözləyən məsələlər də qalır. Sazişin imzalanması və ratifikasiyası, sərhədlərin delimitasiyası, kommunikasiyaların texniki və hüquqi mexanizmlərinin müəyyənləşdirilməsi kimi proseslər ciddi siyasi iradə tələb edir. Tərəflər artıq qarşıdurmanın deyil, münasibətlərin normallaşdırılmasının gündəliyini müzakirə edirlər. Cənubi Qafqazın gələcəyi də məhz burada müəyyənləşir.

Uzun illər regionun siyasi leksikonunda "münaqişə", "işğal", "atəşkəs" və "təhlükəsizlik" sözləri üstünlük təşkil edirdisə, indi onları "sülh", "kommunikasiya", "ticarət", "enerji", "tranzit" və "əməkdaşlıq" anlayışları əvəz edib. Bu, sadəcə terminlərin yox, həm də geosiyasi düşüncənin dəyişməsidir. Bu dəyişimin mərkəzində Azərbaycanın irəli sürdüyü sülh və əməkdaşlıq gündəliyi dayanır.

Cənubi Qafqazın qarşısında indi tarixi seçim var: keçmişin qarşıdurma məntiqinə qayıtmaq, yoxsa sülhün yaratdığı yeni imkanları regional inkişafın əsasına çevirmək. Azərbaycanın mövqeyi aydındır - sülh təhlükəsizlikdir, açıq yollar və kommunikasiyalardır, iqtisadi inkişafdır, qarşılıqlı etimaddır və gələcəyə birlikdə baxmaq imkanıdır. Cənubi Qafqazda yaranan yeni geosiyasi reallıq gələcəyin yenidən yazılması üçün yaranmış tarixi imkan və fürsətdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Minatəmizləmə, yenidənqurma və geri qayıdış üzrə Azərbaycan modeli

Otuz ilə yaxın davam edən işğal dövrü Azərbaycanın təkcə şəhər və kəndlərinin dağıdılması ilə nəticələnməyib, eyni zamanda torpaqlarımızı real mina tarlasına çevirib. İlkin hesablamalara görə, Azərbaycanın ərazisinin 13 faizindən çoxu mina və partlamamış sursatların təsirinə məruz qalıb.




İkinci Qarabağ müharibəsindən sonra - 2020-ci ildən indiyədək mülki şəxslər, hərbçilər, minaaxtaranlar, jurnalistlər və yenidənqurma işlərində iştirak edən şəxslər də daxil olmaqla, 437 Azərbaycan vətəndaşı mina və partlayıcı sursat hadisələrinin qurbanı olub. Nəticədə 73 nəfər həyatını itirib, 364 nəfər ağır yaralanıb. Ümumilikdə, Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan bəri arasında uşaqların, qadınların və digər mülki şəxslərin olduğu 3 min 500-dən çox vətəndaşımız minalardan zərər çəkib.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin, Böyük qayıdışın önündə duran ən böyük maneə məhz Ermənistanın həyata keçirdiyi mina terrorudur.

### Humanitar minatəmizləmə vacib öhdəlikdir

Ermənistanın təqdim etdiyi mina xəritələrinin qeyri-dəqiq və natamam olması vəziyyəti daha da mürəkkəbləşdirir. Çünki mina və mina-tələlər yalnız keçmiş təmas xəttində deyil, yollarda, yaşayış massivlərində, qəbiristanlıqlarda, əkin sahələrində, meşələrdə və çay sahillərində basdırılıb.

Bu faciəvi reallıq postmünaqişə dövründə humanitar minatəmizləmənin nəinki milli, həm də qlobal miqyasda mühüm prioritetə çevrilməsini şərtləndirir.

"Şəhərlərin bərpası üçün humanitar minatəmizləmə: Təhlükəsiz yaşayış məskənləri üçün mükəmməllik standartlarının müəyyənləşdirilməsi" mövzusunda keçirilən 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına müraciətində Prezident İlham Əliyev problemin miqyası və həlli yolları ilə bağlı deyib: "...Humanitar minatəmizləmə təhlükəsiz yaşayış məskənləri üçün vacib bir öhdəlikdir. Münaqişədən sonra ərazilərdə şəhərlərin bərpası binaların, yolların və ictimai infrastrukturun yenidən qurulması ilə yanaşı, təhlükəsizliyin və inamın bərqərar olmasını tələb edir. Torpaqlar minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənməyincə heç bir şəhər, kənd və ya qəsəbə tam şəkildə yenidən qurula, heç bir məktəb və ya xəstəxana təhlükəsiz fəaliyyət göstərə, heç bir ailə öz yurduna ləyaqətlə geri qayıda və heç bir iqtisadi fəaliyyət davamlı inkişaf edə bilməz".

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı minatəmizləmə əməliyyatları nəticəsində bu günədək 298 min hektardan çox ərazi təmizlənib, 260 min 147 mina və partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. Azərbaycan minatəmizləmənin sürətini, təhlükəsizliyini və səmərəliliyini artırmaq üçün qabaqcıl texnologiyalar, innovativ yanaşmaları və müasir idarəetmə sistemləri tətbiq edir.

Mina təmizlənməsi prosesi beynəlxalq tərəfdaşlarla, xüsusən Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə sıx əməkdaşlıq şəraitində aparılır. Prezident İlham Əliyevin BMT-nin Azərbaycanda yeni təyin olunmuş rezident-əlaqələndiricisi Dmitro Şlapaçenkonun etimadnaməsini qəbul edərkən keçirilən görüşdə bu məsələ bir daha diqqət mərkəzində olub.

Görüş zamanı minalar problemini qeyd edən Dmitro Şlapaçenko BMT-nin bu məsələdə Azərbaycana dəstək verməyə və təcrübəsini bölüşməyə hazır olduğunu dedi.

Dövlətimizin başçısı da işğaldan azad olunmuş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərindən danışdı, ölkəmizin üzləşdiyi mina probleminin miqyasını qeyd etdi. Prezident İlham Əliyev bunun bərpa-quruculuq işlərinə mane olmasına baxmayaraq, Azərbaycanın minatəmizləmə sahəsində də ardıcıl fəaliyyətini davam etdirdiyini vurğuladı.

### 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi

Mina təhlükəsinə qarşı aparılan fəaliyyət ölkəmizdə dövlət siyasətinin prioritetidir. Azərbaycan bu humanitar fəaliyyəti rəsmi şəkildə 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi elan edib. Azad edilmiş torpaqlarda həyata keçirilən minatəmizləmə prosesi şəhərlərin bərpasını, kənd təsərrüfatının dirçəldilməsini və keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz ata-baba yurdlarına qaytarılmasını təmin edən təməl faktordur.

Bu siyasətin real nəticələri artıq Böyük qayıdış proqramının uğurlu icrasında öz əksini tapır. Görülən ardıcıl tədbirlər sayəsində hazırda Qarabağ və Şərqi Zəngəzurda məskunlaşan əhalinin sayı 90 mini keçib, 40 minə yaxın keçmiş məcburi köçkün isə artıq doğma evlərinə qayıdıb.

Prezident İlham Əliyev 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçılarına müraciətində vurğulayıb ki, Azərbaycan bu təcrübəni münaqişənin bənzər fəsadları ilə üzləşən ölkələr və regionlarla bölüşməyə hazırdır: "Çünki inanırıq ki, minatəmizləmə, yenidənqurma və geri qayıdış üzrə Azərbaycan modeli dünyada bir çox tərəfdaşlar üçün praktik maraq kəsb edə bilər".

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən irimiqyaslı minatəmizləmə əməliyyatları münaqişədən sonrakı bərpa və idarəetmə sahəsində dünyada analoqu az olan unikal model formalaşdırır. Ermənistanın yaratdığı mina maneələrinə və beynəlxalq dəstəyin yetərsizliyinə baxmayaraq, Böyük qayıdış prosesi dayanmadan irəliləyir.

Mina terroru insanlığa qarşı işlənmiş cinayətdir və bu təhlükəyə son qoyulması beynəlxalq həmrəylik tələb edir. Azərbaycan öz torpaqlarını bu təhlükədən təmizləyərək həyatı yenidən öz axarına qaytarır. Bərpaolunan hər bir kənd və şəhər ölkəmizin sarsılmaz iradəsinin, sülhə və quruculuğa olan sadiqliyinin əyani sübutudur.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# 7 ayda 2,5 milyard dollarlıq qeyri-neft məhsulları ixrac olunub

Azərbaycanda sənayeləşmə istiqamətində atılan addımlar tədricən öz bəhrəsini verir. Müasir texnologiyaların tətbiqi ilə yaradılan yeni sənaye müəssisələrində istehsal olunan məhsullar yerli tələbatı ödəməklə yanaşı, dünya bazarına da ixrac edilir.

İndi belə müəssisələr təkcə Bakı və Sumqayıtda yaradılmır, regionlarda da sənaye obyektləri tikilir. Xüsusən işğaldan azad olunmuş ərazilərdə müasir texnologiyalarla təchiz edilmiş müəssisələrin yaradılmasına fikir verilir. Sənayeləşmə siyasətinin nəticələrini dövlət büdcəsinin formalaşmasında da görmək mümkündür. Əvvəllər büdcə əsasən neft-qaz gəlirləri, gömrük resursları və vergidən əldə olunan vəsaitlər hesabına formalaşırdısa, indi dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz sənayesindən əldə olunan gəlirlərin payının artdığı öz əksini tapır.

İstehsal edilən qeyri-neft-qaz məhsullarının çəkisinin yüksəlməsi ixracda da hiss olunur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"nın 2026-cı il üzrə avqust sayını təqdim edib. İcmala əsasən, cari ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft məhsulları üzrə ixracının dəyəri (qeyri-monetar qızıl istisna olmaqla) ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz artaraq 2,5 milyard dollara çatıb. Cari ilin iyul ayında isə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 15,8 faiz artaraq 384,8 milyon dollar olub.

Bu dövr ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri 123 milyon, qeyri-yeyinti məhsullarının ixracı isə 26 faiz artaraq 261,8 milyon dollar təşkil edib.

İcra olunan aqrar islahatlar ölkədə məhsulun istehsalı kimi ixracının da artmasına imkan yaradıb. Əvvəllər idxal etdiyimiz bir çox məhsulları indi ixrac edirik. İİTKM-nin hesabatında bildirilir ki, aqrar məhsulların ixracının dəyəri 22,1 faiz artaraq 673,4 milyon, aqrar sənaye məhsullarının ixracının dəyəri isə 24,8 faiz artaraq 223,1 milyon dollar təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 22,8 faiz artaraq 896,4 milyon dollara bərabər olub.

Bu ilin yanvar-iyul ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Prime Export" MMC, "Tabaterra" MMC, "Vvest Stream" MMC, "Agrarco" MMC, "Silk Way Aviaşirkəti" MMC və "Afa Export" MMC təmsil olunublar. Qeyri-neft sektoru üzrə (qeyri-monetar qızıl istisna olmaqla) ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar" İdarəsi başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azergold" QSC, "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərenerji" ATSC, "Naxçıvan Enerji" MMC və "Socar Cape" MMC.



Cari ilin 6 ayında həmçinin "Azərkosmos" tərəfindən dünyanın 35 ölkəsindən olan 95-ə yaxın şirkətə 15,2 milyon dollar dəyərində telekommunikasiya xidmətləri göstərilib. Bu dövr ərzində formalaşan ümumi gəlirlərin 62 faizini ixrac əməliyyatları təşkil edib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracından daha çox Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan və Misir yararlanıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Azərbaycan-Çin münasibətləri: strateji tərəfdaşlığın və çoxşaxəli əməkdaşlığın yüksəliş mərhələsi

Çoxvektorlu xarici siyasət yürüdən Azərbaycanın münasibətləri dərinləşdirdiyi aparıcı güclərdən biri də Çin Xalq Respublikasıdır. Strateji dərinlik qazanmış bu tərəfdaşlıq xətti özünün yüksək inkişaf dövrünü yaşayır. Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycan ilə dünyanın ikinci böyük iqtisadiyyatı sayılan Çin arasında qurulan tərəfdaşlıq iki ölkənin maraqlarını təmin etməklə paralel, eyni zamanda Avrasiya məkanında yeni geoiqtisadi xəritənin çəkilməsində əsas hərəkətverici qüvvə kimi çıxış edir.

2025-ci ilin aprel ayında imzalanmış hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat Bakı və Pekin arasında gələcək çoxşaxəli fəaliyyətin hüquqi və siyasi təməllərini daha da möhkəmləndirdi. Məhz bu tarixi sənədin imzalanması ilə ikitərəfli siyasi, iqtisadi və logistik müstəvidə əməkdaşlıq genişləndi, gələcək çoxşaxəli fəaliyyətin aydın yol xəritəsi müəyyən edildi.

Sentyabrın 2-də Prezident İlham Əliyev Çin Xalq Respublikasının Ali Xalq Prokurorluğunun baş prokuroru Yinq Yonqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bu tərəfdaşlığın mahiyyətinə toxunaraq vurğulayıb: "Aprel ayından etibarən Çin və Azərbaycan artıq hərtərəfli strateji tərəfdaşlıq çərçivəsində fəaliyyət göstərir. Ötən il ölkənizə dövlət səfərimdə mənə göstərilən qonaqpərvərliyi böyük minnətdarlıq hissi ilə xatırlayıram. Çin Xalq Respublikasının Sədri Si Cinpin və digər yüksəksəviyyəli rəsmilərlə müzakirələrim bir daha göstərir ki, hər iki ölkə bir-birini çox yaxşı dost hesab edir".

Strateji tərəfdaşlığın siyasi müstəvidəki vacib məqamı tərəflərin bir-birinin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi qətiyyətli dəstəkdir. Azərbaycan "Vahid Çin" prinsipini birmənalı şəkildə müdafiə edərək Tayvanı Çinin ayrılmaz tərkib hissəsi kimi tanıyır. Eynilə, Çin tərəfi Azərbaycanın Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunmasına yönəlmiş siyasətini, suveren hüquqlarını tam dəstəkləyir. Tərəflərin beynəlxalq hüququn aliliyinə verdiyi bu dəyər konstruktiv dialoqa xidmət edir.

Sentyabrın 1-də Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) platforması çərçivəsində Bişkekdə keçirilən yüksəksəviyyəli "ŞƏT plyus" görüşü də Bakı-Pekin xəttindəki siyasi həmrəyliyi nümayiş etdirdi. Təşkilatla dialoq tərəfdaşı kimi sıx əməkdaşlıq edən Azərbaycan ədalətli nizamın tərəfdarı olduğunu növbəti dəfə beynəlxalq tribunadan dünyaya bəyan etdi. Dövlətimizin başçısı Çin heyətini qəbul edərkən beynəlxalq hüquqa sadiqlik və ŞƏT platformasındakı ortaq baxışlar barədə deyib: "Əlbəttə ki, hər iki ölkənin suverenliyinə və ərazi bütövlüyünə güclü qarşılıqlı dəstəyi Çinin və Azərbaycanın beynəlxalq hüquq normalarına sadiq olduğunu əyani şəkildə göstərir. Dünən "ŞƏT plyus" formatında Bişkekdə keçirilən yüksəksəviyyəli görüşdə Sədr Si Cinpin hüquq normaları, davranış qaydaları, beynəlxalq münasibətlər, qlobal xəritədə hər bir ölkənin bərabər olması haqqında danışdı. Biz bu çox aydın baxışla tam razıyıq. Qarşılıqlı dəstək, bir-birinin daxili məsələlərinə qarışmama, dünya miqyasında hər bir ölkənin bərabər şəkildə təmsil olunması və qarşıdurmaya yox, əməkdaşlığa yönəlmiş siyasət bizim strategiyaya tamamilə uyğundur".

Siyasi anlaşmaların nəticəsi olaraq ikitərəfli iqtisadi və investisiya əlaqələrindəki göstəricilər də yüksəlib. Azərbaycanın əsas ticarət tərəfdaşlarından birinə çevrilən Çin yerli bazarda, xüsusən qeyri-neft sektorunda iştirakını genişləndirib. Çin şirkətlərinin ölkəmizdəki infrastruktur, sənaye və yüksək texnologiya layihələrində investor və podratçı kimi iştirakı hər iki tərəf üçün dividendlər gətirir.

İqtisadi tərəfdaşlığın ən önəmli sahəsi nəqliyyat və logistikadır. Çinin qlobal "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri kimi Azərbaycan Mərkəzi Asiya və Xəzər dənizi üzərindən keçən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun, yəni Orta dəhlizin ən mühüm mərkəzinə çevrilib. Avropa ilə Asiya arasında təhlükəsiz və qısa yükdaşıma zəncirini təmin edən bu marşrut üzrə yükdaşımaların həcmi sürətlə artır. Azərbaycanın modernləşən nəqliyyat-logistika infrastrukturu Çin məhsullarının dəniz və dəmir yolları vasitəsilə Qərb istiqamətinə maneəsiz çatdırılmasına etibarlı zəmanət verir. Xüsusilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və ölkəmizin əlverişli coğrafi mövqeyi Trans-Xəzər marşrutunun ötürmə qabiliyyətini artıraraq daşımalarda vaxta və xərclərə ciddi qənaət edilməsinə yol açır. Bu strateji nəqliyyat dəhlizinin inkişafı hər iki ölkə liderinin nümayiş etdirdiyi siyasi iradənin və uzaqgörən xarici siyasət kursunun bariz göstəricisidir. Dövlət başçılarının logistik layihələrə verdiyi dəstək "Şərq-Qərb" nəqliyyat qovşağının təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, ikitərəfli iqtisadi tərəfdaşlığı keyfiyyətcə yeni müstəviyə qaldırır.

Qitələri birləşdirən bağlantı şəbəkəsinin önəmini vurğulayan Azərbaycan Prezidenti Çin rəsmisini qəbul edərkən bu məqama xüsusi toxunub: "Əlbəttə ki, əməkdaşlığımızın vacib seqmenti bağlantıdır. Sədr Si Cinpinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsi Azərbaycan tərəfindən tamamilə dəstəklənir. Biz bunu təkcə bəyanatlarla deyil, praktiki addımlarla göstəririk. Bu gün Mərkəzi Asiya, Azərbaycan və Çin arasında bağlantı qlobal əməkdaşlığın, təhlükəsizliyin mühüm amilidir. Keçən ay mən Mərkəzi Asiyanın iki ölkəsinə dövlət səfəri etdim. Növbəti ay mən Mərkəzi Asiyanın üçüncü bir ölkəsini ziyarət edəcəyəm və əlbəttə ki, bizim danışıqların mühüm hissəsi bağlantı mövzusudur. Burada Çin yüklərin həcmi nöqteyi-nəzərindən əsas oyunçudur".

Azərbaycan-Çin əməkdaşlığı ənənəvi sahələrlə məhdudlaşmır, həm də dövrün tələblərinə uyğun olaraq "yaşıl enerji", rəqəmsal iqtisadiyyat və süni intellekt kimi innovativ istiqamətləri də əhatə edir. Ölkəmizdə reallaşdırılan günəş və külək-elektrik stansiyalarının inşasında Çinin qabaqcıl texnologiyalarından geniş istifadə olunur.

Dövlətlərarası münasibətlərdə xalqlar arasında yaranan humanitar körpülər də önəm kəsb edir. İkitərəfli qaydada viza tələbinin ləğv edilməsi haqqında qəbul olunmuş qərar Bakı ilə Pekin arasında etimadın aydın göstəricisidir. Vizasız rejim nəticəsində həm işgüzar dairələrin gediş-gəlişi asanlaşıb, həm də qarşılıqlı turist axınında artım qeydə alınıb. Dövlətimizin başçısı bununla bağlı deyib: "Nəhayət, sonuncu məsələ dostluğun və qarşılıqlı etimadın əlaməti ilə bağlıdır. Bu da hər iki ölkəyə səfərlər üçün viza tələbinin aradan qaldırılmasıdır. İndi bizim vətəndaşlar hər hansı bir viza tələbi olmadan səyahət edə bilərlər".

Azərbaycan-Çin münasibətləri qlobal miqyasda sabitliyə, iqtisadi tərəqqiyə və təhlükəsizliyə xidmət edən nümunəvi əməkdaşlıq modelinə çevrilib. İki ölkə arasında imzalanan hər sənəd, atılan hər əməli addım və liderlərin nümayiş etdirdiyi güclü siyasi iradə bu tərəfdaşlığın gələcəkdə daha böyük uğurlara imza atacağını əminliklə söyləməyə imkan verir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan və Qazaxıstan həmkarlar ittifaqları arasında əməkdaşlıq üzrə "Yol xəritəsi" imzalanıb









**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) nümayəndə heyəti Qazaxıstanda səfərdədir. Səfərin məqsədi Azərbaycan və Qazaxıstan həmkarlar ittifaqları arasında əlaqələrin inkişafı, ölkəmizin sağlamlıq turizmi imkanlarının təbliği, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi və əməkdaşlığın gücləndirilməsidir.**

Səfər çərçivəsində Qazaxıstan Həmkarlar İttifaqları Federasiyasında görüş keçirilib.

Görüşdə çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov Azərbaycan-Qazaxıstan əlaqələrinin dövlət başçıları cənab İlham Əliyev və cənab Kasım-Jomart Tokayevin siyasi iradəsi və birgə səyləri nəticəsində strateji tərəfdaşlıq səviyyəsində dinamik inkişaf etdiyini vurğulayıb, dostluq və qardaşlığa əsaslanan münasibətlərin həmkarlar ittifaqları arasında əməkdaşlığın genişləndirilməsi üçün əlverişli zəmin yaratdığını diqqətə çatdırıb. Eyni zamanda dövlətimiz tərəfindən ictimai təsisatların səmərəli fəaliyyəti üçün yaradılan əlverişli şərait vurğulanıb, ölkəmizdə həmkarlar ittifaqları sisteminin modernləşdirilməsi, əmək hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi, sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi, eləcə də rəqəmsal imkanların artırılması istiqamətində reallaşdırılan tədbirlər barədə məlumat verilib.

Görüşdə AHİK-in həmkarlar ittifaqları üzvlərinə təqdim etdiyi elektron xidmətlər, e-ahik Elektron Rezervasiya platforması, rəqəmsallaşmanın sürətləndirilməsi prosesində süni intellektin tətbiqi ilə bağlı təqdimatlar keçirilib, sağlamlıq və istirahət mərkəzlərində şəraitin yaxşılaşdırılması, xidmətlərin keyfiyyətinin yüksəldilməsi üçün görülən işlərdən bəhs olunub.

Qazaxıstan Həmkarlar İttifaqları Federasiyasının sədri Satıbaldı Dauletalin rəhbərlik etdiyi təşkilatın fəaliyyəti və həyata keçirdiyi layihələr barədə məlumat verib, iki dost ölkənin həmkarlar ittifaqları arasında əlaqələrin dinamik inkişafının, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini qeyd edib.

Tərəflər həmkarlar ittifaqları arasında təhsil, sağlamlıq turizmi və digər istiqamətlər üzrə əməkdaşlığın inkişafı perspektivləri, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi məsələləri ilə bağlı müzakirələr aparıblar.

Görüşün sonunda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə Qazaxıstan Həmkarlar İttifaqları Federasiyası arasında imzalanmış Əməkdaşlıq Sazişinin icrasına dair "2026-2028-ci illər üçün Yol xəritəsi" imzalanıb.

Sənəd özündə iki ölkənin həmkarlar ittifaqları arasında əməkdaşlığın inkişafı istiqamətlərini, birgə layihə və təşəbbüslərin həyata keçirilməsini ehtiva edir.

Səfər çərçivəsində AHİK nümayəndələri həmçinin "Qazaxıstan Dəmir Yolu, Avtomobil, Hava və Su Nəqliyyatı İşçilərinin Sahə Peşəkar Həmkarlar İttifaqı" İctimai Birliyinin və ilk həmkarlar ittifaqlarının rəhbərləri ilə də görüşüb, "Казакстан Темiржолшысы" qəzetinin fəaliyyəti ilə tanış olublar.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# "Azərenerji" və Çinin "Universal Energy" şirkəti rəhbərliyinin görüşü olub



**"Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayevlə Çinin "Universal Energy" şirkətinin baş icraçı direktoru Yi Nan arasında görüş keçirilib.**

Görüş zamanı bərpaolunan enerji sahəsində əməkdaşlıq, Çin enerji şirkətlərinin Azərbaycandakı fəaliyyəti, eləcə də əməkdaşlığın gələcək perspektivləri müzakirə olunub. Tərəflər enerji sektorunda qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apararaq, əməkdaşlığın genişləndirilməsi istiqamətində imkanları nəzərdən keçiriblər.

***N.ƏSGƏROVA,***
***"Azərbaycan"***

# Çin enerji sahəsində Azərbaycanı özünün etibarlı tərəfdaşı kimi görür

**Çinin Milli Dəniz Neft Korporasiyası CNOOC-un ("China National Offshore Oil Corporation") sədri Canq Şanczyanın Bakıya səfəri ölkəmizlə enerji sahəsində əməkdaşlığı möhkəmləndirmək və birgə görüləcək işləri müəyyənləşdirməkdir. Energetika Nazirliyində və SOCAR-da (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) keçirilən görüşlər, imzalanan mühüm sənəd də bunu təsdiqləyir.**







Bir neçə gün əvvəl SOCAR ilə CNOOC arasında Anlaşma Memorandumu imzalanıb. Bu sənəd Azərbaycanda və digər ölkələrdə birgə "upstream" (xam neftin və təbii qazın axtarışı, kəşfiyyatı və çıxarılması mərhələsi) layihələrinin həyata keçirilməsini, habelə neft-qaz sektorunda texniki xidmətlər, avadanlıq və texnologiyaların təchizatı, mühəndislik, əməliyyat və texniki dəstək sahələrində əməkdaşlığın genişləndirilməsi məsələlərini nəzərdə tutur.

SOCAR-ın prezidenti Rövşən Nəcəf və CNOOC-un sədri Canq Şanczyanın görüşü çərçivəsində aparılan söhbət zamanı tərəflər dənizdə neft və qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi, hasilatı, neft emalı, neft-kimya sahələrində investisiya imkanları barədə danışıblar. Eləcə də beynəlxalq ticarət üzrə əməkdaşlıq fürsətləri, yeni texnologiyaların tətbiqi və əməliyyat səmərəliliyinin artırılması istiqamətlərində tərəfdaşlıq məsələləri nəzərdən keçirilib.

CNOOC-un sədri Canq Şanczyan Energetika Nazirliyində də olub və orada nazir Pərviz Şahbazovla görüşüb. Görüşdə Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığın inkişafından məmnunluq ifadə olunub. Ölkələrimiz arasında müxtəlif sahələrdə uğurla davam edən əməkdaşlığın enerji sektorunda da geniş imkanlar yaratdığı vurğulanıb. Azərbaycan-Çin strateji əməkdaşlığının daha da möhkəmləndirilməsinə xidmət edən sənədlərin əhəmiyyəti qeyd olunub.

Məlumdur ki, Azərbaycan və Çin şirkətləri arasında enerji sahəsində yaxın əməkdaşlıq əlaqələri formalaşıb. Mövcud tərəfdaşlığın inkişaf etdirilməsi və yeni birgə layihələrin həyata keçirilməsi üçün imkanlar isə daha böyükdür. Odur ki, CNOOC şirkətinin nümayəndələri Azərbaycanda həyata keçirilən enerji layihələrində iştirak etmək maraqlarını bildiriblər.

Müzakirələr zamanı neft-qaz sektoru və "yaşıl enerji" sahəsində potensial layihələr, o cümlədən Xəzər dənizində mümkün enerji layihələri barədə müzakirələr aparılıb. Beləliklə, bu il sentyabrın 1-də Azərbaycan ilə CNOOC arasında ən son və ən strateji addım atılıb.

Rəsmi danışıqlara əsasən, Çin tərəfi Xəzər dənizində bir neçə istiqamətdə layihələrin iştirakçısı olmaqda maraqlıdır. Bunlardan biri dənizdə neft və qaz ehtiyatlarının axtarışı, qiymətləndirilməsi və birgə işlənməsidir. Çin şirkəti özünü Xəzərin külək enerjisi potensialı da daxil olmaqla, "yaşıl enerji" mənbələri üzrə də tərəfdaşımız kimi görür. Eləcə də təkcə Azərbaycanda deyil, həmçinin üçüncü ölkələrdə birgə geoloji-kəşfiyyat və hasilat fəaliyyəti qurmaq istəyir.

Deyilənlərə əlavə edək ki, CNOOC Çinin üçüncü ən böyük dövlət neft və təbii qaz şirkətidir. Şirkət ölkənin əsasən dənizyanı (offshore) ərazilərində, həmçinin qlobal miqyasda karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı və emalı ilə məşğul olur.

CNOOC 1982-ci ildə Çin Xalq Respublikası Dövlət Şurasının qərarı ilə yaradılıb. Korporasiyanin baş ofisi Pekin şəhərində yerləşir. Statusuna görə, tamamilə Çin dövlətinə məxsusdur. Beynəlxalq birjalarda (Honq-Konq və Şanxay) isə onun əsas törəmə müəssisəsi olan CNOOC Limited iştirak edir. Şirkətə Müşahidə Şurasının və şirkətin sədri rəhbərlik edir.

Bir sözlə, CNOOC dünyanın 40-dan çox ölkə və regionunda aktivlərə malik qlobal enerji nəhəngidir. Asiya, Afrika, Şimali və Cənubi Amerika, Yaxın Şərq və Avropada iri layihələrdə iştirak edir. Şirkətin biznes modeli şaxələnmiş strukturdan ibarətdir və 5 əsas seqmenti əhatə edir. Belə ki, kəşfiyyat və hasilatda Çinin dəniz sahələrində (Bohay dənizi, Cənubi və Şərqi Çin dənizi) ən böyük neft-qaz hasilatçısıdır. Mühəndislik və texniki xidmətlər sahəsində dəniz platformalarının tikintisini və qazma işləri aparır. Emal və marketinqdə isə CNOOC xam neftin neft məhsullarına və neft-kimya maddələrinə çevrilməsi sahəsində çalışır.

CNOOC eləcə də mayeləşdirilmiş təbii qaz (LNG) idxalı və elektrik enerjisi istehsalı ilə məşğuldur. "Yaşıl enerji"yə gəldikdə isə son illərdə şirkət Xəzərdə və digər regionlarda dəniz külək enerjisi layihələrinə də investisiya yatırır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Tibb işçilərinin minnətdarlığında dövlət qayğısının əks-sədası

Tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı mühüm qərar səhiyyə sistemində çalışan insanların sosial rifahının yüksəldilməsi ilə yanaşı, onların əməyinə verilən yüksək dövlət qiymətinin ifadəsi kimi qarşılanıb. İnsan sağlamlığının keşiyində dayanan, ən çətin və məsuliyyətli məqamlarda vətəndaşların yanında olan tibb əməkdaşları bu qərarı böyük rəğbət və minnətdarlıq hissi ilə dəyərləndirirlər. Onların fikirlərində həm göstərilən diqqətə görə təşəkkür, həm də bundan sonra öz peşə vəzifələrini daha böyük məsuliyyət və ruh yüksəkliyi ilə yerinə yetirmək əzmi ifadə olunur.



**Gülxarə Qurbanlı, Göyçay Rayon Mərkəzi Xəstəxanasının Reanimasiya, anesteziologiya və intensiv terapiya şöbəsinin tibb bacısı:**

- Bu qərarın qəbulunu böyük sevinc və minnətdarlıq hissi ilə qarşıladıq. Tibb işçisinin əməyi böyük məsuliyyət, səbir və fədakarlıq tələb edir. Əməkhaqlarının artırılması dövlətimizin səhiyyə işçilərinə, onların sosial rifahının yüksəlməsinə və əməyinə verdiyi yüksək dəyərin göstəricisidir. Bu qayğı bizi həm maddi baxımdan dəstəkləyir, həm də öz işimizə daha böyük ruh yüksəkliyi və məsuliyyətlə yanaşmağa stimul verir. Xüsusilə səhiyyə sisteminin inkişafına və tibb işçilərinin rifahının yaxşılaşdırılmasına göstərdiyi diqqətə görə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və bu təşəbbüsü dəstəkləyərək müvafiq qərarı qəbul edən Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Bu qayğını öz fəaliyyətimizlə doğrultmaq, insan sağlamlığının keşiyində daha böyük əzmlə dayanmaq bizim üçün həm məsuliyyət, həm də mənəvi borcdur.



**Günel Bəbirova, Ağciyər Xəstəlikləri Mərkəzinin Qobustan Regional Xəstəxanasının baş tibb bacısı:**

- Əməkhaqlarının artırılması xəbərini böyük sevinc və minnətdarlıq hissi ilə qarşıladıq. Bu qərar bizim üçün yalnız maddi təminatın yaxşılaşdırılması deyil, gündəlik fəaliyyətimizin, məsuliyyətli əməyimizin və səhiyyə sisteminə verdiyimiz töhfənin dövlət tərəfindən yüksək qiymətləndirilməsi deməkdir. Xüsusilə tibb bacılarının üzərinə düşən vəzifələr çoxşaxəli və böyük məsuliyyət tələb edir. Xəstəyə qayğının, müalicə prosesinin düzgün təşkilinin və tibbi xidmətin keyfiyyətinin təmin olunmasında tibb bacılarının mühüm rolu var. İnanıram ki, bu addım kollektivimizdə işə daha böyük həvəs və məsuliyyət yaradacaq, hər birimizi öz vəzifəmizi daha vicdanla və yüksək peşəkarlıqla yerinə yetirməyə ruhlandıracaq. Səhiyyə işçilərinə göstərilən bu diqqət və qayğıya görə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürümü bildirirəm. Bu təşəbbüsün dəstəklənməsi və həyata keçirilməsi ilə bağlı qərarına görə Prezident İlham Əliyevə minnətdarıq. Dövlətimizin bizə göstərdiyi etimadı bundan sonra da keyfiyyətli və məsuliyyətli əməyimizlə doğrultmağa çalışacağıq.



**Aysel Daşdəmirova, Suraxanı Tibb Mərkəzinin həkim-pediatrı:**

- Pediatr olaraq uşaqların sağlamlığı və onların gələcəyi üçün böyük məsuliyyət daşıyırıq. Tibb işçilərinin əməyinə göstərilən diqqəti və əməkhaqlarının artırılması ilə bağlı qərarı yalnız maddi dəstək kimi deyil, səhiyyə işçilərinə verilən yüksək dəyərin ifadəsi kimi qəbul edirəm. Bu qərar bizim üçün həm sevindirici, həm də məsuliyyətimizi daha dərindən hiss etdirən bir addımdır. Dövlətin tibb işçilərinin sosial rifahına göstərdiyi qayğı əminlik yaradır ki, səhiyyənin inkişafı və insan sağlamlığının qorunması daim diqqət mərkəzindədir. Bu mühüm təşəbbüsə görə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Bizim borcumuz isə göstərilən bu etimadı öz əməyimizlə doğrultmaq, xüsusilə də uşaqların sağlamlığının qorunmasına bundan sonra da bütün bilik və bacarığımızla xidmət etməkdir.



**Anar Məmmədov, Ağciyər Xəstəlikləri Mərkəzinin İsmayıllı Regional Xəstəxanasının baş həkimi:**

- Əməkhaqlarının artırılması ilə bağlı qərarı böyük məmnunluq və minnətdarlıq hissi ilə qarşıladıq. Səhiyyə müəssisəsinə rəhbərlik edən bir həkim kimi bu qərarın kollektivimizin fəaliyyətinə verəcəyi müsbət təsiri xüsusilə yüksək qiymətləndirirəm. Tibb işçisinin əməyinə verilən dəyər həm onun sosial rifahının yaxşılaşdırılmasına, həm də peşə fəaliyyətinə münasibətdə əlavə məsuliyyət və ruh yüksəkliyinin formalaşmasına xidmət edir. Xüsusilə regionlarda çalışan səhiyyə işçilərinin əməyinin stimullaşdırılması burada tibbi xidmətin daha da inkişaf etdirilməsi, peşəkar kadrların sistemdə möhkəmlənməsi və əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu mühüm təşəbbüsə və tibb işçilərinə göstərilən davamlı diqqətə görə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürümü bildirirəm. Qərarı dəstəkləyən və onun həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verən Prezident İlham Əliyevə dərin minnətdarlığımı ifadə edirəm. Əminəm ki, dövlətimizin bu qayğısı səhiyyə kollektivlərini daha böyük əzmlə çalışmağa, öz fəaliyyətlərini daim təkmilləşdirməyə və insan sağlamlığının qorunmasına layiqli töhfələr verməyə ruhlandıracaq.



**Gülgəz Şərifova, 2 saylı Yasamal Təcili Tibbi Yardım Bölməsinin həkimi:**

- Bizim işimizdə hər çağırışın arxasında bir insanın həyatı, bir ailənin narahatlığı dayanır. Təcili tibbi yardım həkimi olaraq bəzən saniyələrin belə böyük əhəmiyyət daşıdığı məqamlarda qərar verməli və xəstəyə mümkün olan ən qısa zamanda yardım göstərməli oluruq. Tibb işçilərinin əməkhaqlarının artırılması ilə bağlı qərarı böyük sevinc və minnətdarlıq hissi ilə qəbul edirəm. Bu addım dövlətimizin insan sağlamlığına və onun keşiyində dayanan səhiyyə əməkdaşlarının əməyinə verdiyi yüksək qiymətin daha bir göstəricisidir. Bu bizim üçün həm sosial baxımdan mühüm dəstək, həm də gündəlik fəaliyyətimizə əlavə stimul deməkdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tibb işçilərinin rifahının yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsünə görə dərin təşəkkürümü bildirirəm. Bu təşəbbüsü dəstəkləyən Prezident İlham Əliyevə minnətdaram. Biz tibb işçiləri üçün dövlət qayğısının ən gözəl cavabı ona layiq olmaq, hər çağırışa ciddi məsuliyyətlə yanaşmaq və insan həyatının qorunması naminə öz vəzifəmizi vicdanla yerinə yetirməkdir.

**Vaqif Nəsirov, 1 saylı Yasamal Təcili Tibbi Yardım Bölməsinin həkimi:**

- Əməkhaqlarının artırılması ilə bağlı qərar tibb işçiləri üçün böyük əhəmiyyət daşıyan bir addımdır. Həkimlik yalnız bir peşə deyil, insan həyatına və sağlamlığına görə böyük məsuliyyət tələb edən bir missiyadır. Bu baxımdan, dövlətimizin səhiyyə əməkdaşlarının əməyinə verdiyi qiymətin belə mühüm qərarla ifadə olunması bizdə xüsusi məmnunluq hissi yaradır. İnanıram ki, bu diqqət tibb işçilərinin sosial rifahına müsbət təsir göstərməklə yanaşı, səhiyyə sistemində peşəkarlığın və işə bağlılığın daha da güclənməsinə xidmət edəcək. Bizə göstərilən dövlət qayğısını yalnız maddi dəstək kimi deyil, həm də əməyimizə verilən yüksək etimad kimi qəbul edirik. Bu mühüm təşəbbüsə görə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürümü, səhiyyə işçilərinin sosial rifahının yüksəldilməsinə yönəlmiş qərarın verilməsinə görə, Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, bu addım tibb işçilərinin gələcəyə inamını daha da artıracaq və bizə insanlara xidmət kimi müqəddəs vəzifəmizi daha böyük əzmlə davam etdirmək üçün yeni güc verəcək.



Bizimlə söhbət edən tibb işçilərinin fikirlərində ifadə olunan ümumi məqam isə birdir: göstərilən dövlət qayğısı səhiyyə əməkdaşları tərəfindən yalnız sosial dəstək kimi deyil, onların əməyinə verilən yüksək qiymətin və dövlətin insan sağlamlığına münasibətinin bariz ifadəsi kimi dəyərləndirilir. Əməkhaqlarının artırılması tibb işçilərinin sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, onların peşə fəaliyyətinə əlavə stimul verəcək, səhiyyə sahəsində insan kapitalının möhkəmlənməsinə və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə töhfə verəcək. Bu gün səhiyyə əməkdaşlarının dilə gətirdikləri minnətdarlıq hissi, əslində, dövlətlə vətəndaş arasında qarşılıqlı etimadın daha bir ifadəsidir. Tibb işçiləri üçün bu diqqətin ən layiqli cavabı isə bundan sonra da insan sağlamlığının keşiyində fədakarlıqla dayanmaq, öz peşələrinə sədaqətlə xidmət etmək və göstərilən yüksək etimadı əməli fəaliyyətləri ilə doğrultmaqdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Tibb işçilərinə verilən dəyər səhiyyənin gələcəyinə qoyulan sərmayədir



Birinci vitse-prezident Mehriban xanım Əliyevanın TƏBİB sistemində çalışan tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması, əməyinin daha yüksək qiymətləndirilməsi və səhiyyə sistemində insan kapitalının gücləndirilməsi məqsədilə əməkhaqlarının artırılması təşəbbüsü ilə çıxış etməsi böyük məmnunluq hissi ilə qarşılanır. Prezident İlham Əliyevin bu mühüm sosial təşəbbüsü müsbət qarşılayaraq onun icrası ilə bağlı müvafiq tapşırıq verməsi dövlətimizin tibb ictimaiyyətinə göstərdiyi diqqət və qayğının növbəti bariz ifadəsidir.

Yeni əməkhaqqı qaydalarının sentyabrın 1-dən qüvvəyə minməsi, 72 mindən artıq tibb işçisini əhatə etməsi və TƏBİB sistemi üzrə illik əməkhaqqı fondunun 189 milyon manat artırılması qərarın miqyasını və sosial əhəmiyyətini aydın şəkildə göstərir. Bu məsələyə yalnız əməkhaqqının artırılması prizmasından yanaşmaq düzgün olmazdı. Əslində, söhbət Azərbaycan səhiyyəsinin inkişafında yeni mərhələdən - sistemin əsas kapitalı olan insana daha böyük sərmayə qoyulmasından gedir.

## Əməyə verilən yüksək qiymət

Mən də həkiməm və uzun illər səhiyyə sistemində çalışmışam. Ona görə tibb işçisinin əməyinin nə qədər böyük məsuliyyət, bilik, səbir və fədakarlıq tələb etdiyini yaxşı bilirəm. Həkimin, tibb bacısının və digər səhiyyə işçilərinin üzərinə yalnız peşə məsuliyyəti düşmür. Onlar hər gün insan sağlamlığı, bir çox hallarda isə birbaşa insan həyatı ilə bağlı qərarlar qəbul edirlər. Bu səbəbdən onların əməyinin layiqincə qiymətləndirilməsi həm sosial ədalət məsələsidir, həm də güclü səhiyyə sisteminin əsas şərtlərindən biridir.

Mehriban xanım Əliyevanın uzun illər ərzində səhiyyə, ana və uşaq sağlamlığına, müasir tibb müəssisələrinin yaradılmasına, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların müalicəsinə dəstəyi və ümumilikdə humanitar məsələlərə göstərdiyi xüsusi həssaslıq cəmiyyətimizə yaxşı məlumdur. Tibb işçilərinin sosial rifahının yüksəldilməsi ilə bağlı hazırkı təşəbbüs də bu ardıcıl, insan amilini ön plana çəkən fəaliyyətin məntiqi davamıdır.

Prezident İlham Əliyevin bu təşəbbüsü dəstəkləməsi və icrası üçün tapşırıq verməsi isə bir daha göstərir ki, ölkəmizdə səhiyyənin inkişafı yalnız yeni xəstəxanaların tikilməsi və texnoloji imkanların genişləndirilməsi ilə məhdudlaşmır. Dövlət səhiyyə sisteminin əsas dayağı olan insanın - həkimin, tibb bacısının və digər tibb işçilərinin sosial rifahını da prioritet hesab edir.

## Əməkhaqqı artımı həm də motivasiya məsələsidir

Yeni əməkhaqqı mexanizminin ilk və birbaşa nəticəsi tibb işçilərinin sosial rifahının yaxşılaşması olacaq. Lakin onun təsiri bununla yekunlaşmır.

İnsan öz əməyinin qiymətləndirildiyini hiss etdikdə işinə münasibəti, peşəsinə bağlılığı və motivasiyası da artır. Səhiyyədə bunun xüsusi əhəmiyyəti var. Çünki tibbi xidmətin keyfiyyəti birbaşa insan amilindən asılıdır. Ən müasir xəstəxananı tikmək, ən qabaqcıl tibbi avadanlığı almaq mümkündür. Lakin həmin texnologiyaların arxasında yüksəkixtisaslı, motivasiyalı və öz əməyinin dəyərini hiss edən həkim və tibb işçisi dayanmasa, gözlənilən nəticəni əldə etmək çətin olar.

Bu mənada tibb işçisinin əməkhaqqına yönəldilən əlavə vəsait yalnız sosial xərc deyil. Bu, Azərbaycan səhiyyəsinin keyfiyyətinə və gələcəyinə qoyulan sərmayədir.

## İnsan kapitalı səhiyyənin əsas strateji resursudur

Müasir dünyada səhiyyə sistemlərinin gücü artıq yalnız xəstəxanaların və çarpayıların sayı ilə ölçülmür. Əsas göstəricilərdən biri insan kapitalının keyfiyyətidir.

Peşəkar həkim yetişdirmək uzun illər tələb edir. Universitet təhsili, ixtisaslaşma, praktiki hazırlıq və sonrakı davamlı tibbi təhsil böyük zaman və resurs tələb edən prosesdir. Belə mütəxəssisin hazırlanması dövlət və cəmiyyət üçün böyük sərmayədir. Ona görə də mövcud peşəkar kadrların sistemdə saxlanılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi, yeni nəsil həkimlərin dövlət səhiyyə sisteminə cəlb olunması strateji məsələdir.

Yeni əməkhaqqı mexanizminin bu baxımdan da ciddi əhəmiyyəti var. Gənc həkim görməlidir ki, onun uzun illər ərzində əldə etdiyi təhsil, bilik, məsuliyyət və peşəkarlıq layiqincə qiymətləndirilir və bu sahədə onun üçün real karyera perspektivi mövcuddur. Bu, istedadlı gənclərin tibb peşəsinə marağını artırmaqla yanaşı, onların dövlət səhiyyə sistemində qalmasına da əlavə stimul verəcək.

İslahatın diqqətçəkən istiqamətlərindən biri regionlarda kadr təminatının yaxşılaşdırılmasıdır. Azərbaycan səhiyyəsinin qarşısında duran mühüm məsələlərdən biri müəyyən ixtisaslar üzrə həkimlərin regionlar arasında qeyri-bərabər bölgüsüdür. Bu problemi yalnız inzibati qərarlarla həll etmək mümkün deyil. Həkimin regionda işləməsi üçün real və cəlbedici sosial-peşəkar mühit yaradılmalıdır.

Diferensial əməkhaqqı və kadr çatışmazlığı olan ixtisaslar üzrə əlavə maddi stimullar bu baxımdan çox vacib addımdır. Lakin hesab edirəm ki, perspektivdə bu siyasət daha geniş sosial paketlərlə tamamlanmalıdır. Regionlarda çalışan həkimlər üçün mənzil və ya kirayə dəstəyi, peşəkar inkişaf və davamlı tibbi təhsil imkanları, şəffaf karyera perspektivi, müasir tibbi avadanlıqla təmin olunmuş iş şəraiti və ailələrinin sosial-məişət ehtiyaclarının nəzərə alınması əlavə nəticələr verə bilər. Çünki həkim regiona yalnız işləməyə deyil, həm də yaşamağa gedir. Buna görə onun sosial mühiti də əməkhaqqı qədər əhəmiyyətlidir.

Belə kompleks yanaşma regionlarda kadr çatışmazlığının mərhələli şəkildə aradan qaldırılmasına, Bakı ilə bölgələr arasında tibbi xidmətə çıxış imkanlarının daha da yaxınlaşmasına xidmət edə bilər.

## Əsas məqsəd xidmətdə keyfiyyətin olmasıdır

Yeni mərhələdə xüsusi diqqət yetirilməli məsələlərdən biri də əməkhaqqı və stimullaşdırma mexanizmlərinin xidmətin keyfiyyəti ilə əlaqələndirilməsidir. Səhiyyədə məqsəd sadəcə daha çox tibbi xidmət göstərmək deyil. Məqsəd düzgün, təhlükəsiz, effektiv və vətəndaş məmnunluğu yaradan xidmət göstərməkdir.

Bu islahatların ən mühüm istiqaməti işin həcmi ilə yanaşı, tibbi nəticələr, xidmət keyfiyyəti, pasiyent təhlükəsizliyi, peşəkarlıq və davamlı tibbi inkişaf kimi göstəricilərin stimullaşdırma sistemində nəzərə alınmasıdır. Bu yanaşma həm tibb işçisinin əməyinin daha ədalətli qiymətləndirilməsinə, həm də səhiyyə sistemində keyfiyyət mədəniyyətinin formalaşmasına xidmət edəcək.

## Azərbaycan səhiyyəsi yeni inkişaf mərhələsinə daxil olur

Son illərdə Azərbaycan səhiyyəsində böyük dəyişikliklər həyata keçirilib. Müasir tibb müəssisələri yaradılıb, onların maddi-texniki bazası yenilənib, icbari tibbi sığorta bütün ölkə üzrə tətbiq olunub, tibbi xidmətlərin əlçatanlığının artırılması istiqamətində mühüm addımlar atılmışdır.

Burada bir neçə istiqamət xüsusi əhəmiyyət daşıyır: ilkin səhiyyə xidmətlərinin və ailə həkimliyi institutunun gücləndirilməsi, regionlarda ixtisaslaşmış tibbi xidmətlərə əlçatanlığın artırılması, səhiyyənin rəqəmsallaşdırılması, vahid elektron tibbi məlumat sistemlərinin inkişaf etdirilməsi, profilaktik təbabətin genişləndirilməsi, davamlı tibbi təhsil və insan resurslarının daha effektiv idarə olunması. Əməkhaqqı islahatı bütün bu proseslərin insan kapitalı komponentini gücləndirən çox mühüm addımdır.

## İslahatın üç əsas nəticəsi

Qarşıdakı dövr üçün bu qərarın üç mühüm nəticəsini xüsusilə qeyd edirəm. Birincisi - daha yüksək sosial rifah və daha güclü peşə motivasiyası. Tibb işçisi öz əməyinin dövlət tərəfindən yüksək qiymətləndirildiyini daha aydın hiss edəcək. Bu, onun peşəsinə və çalışdığı sistemə bağlılığını gücləndirəcək.

İkincisi - daha güclü insan kapitalı və kadr potensialı. Yeni əməkhaqqı siyasəti gənc həkimlərin dövlət səhiyyə sisteminə marağının artırılmasına, ixtisaslı mütəxəssislərin sistemdə saxlanılmasına və regionlarda kadr təminatının yaxşılaşdırılmasına xidmət edəcək.

Üçüncüsü və ən əsası - daha keyfiyyətli tibbi xidmət və daha yüksək vətəndaş məmnunluğu. Bütün islahatların son nəticəsini vətəndaş hiss etməlidir. Daha motivasiyalı tibb işçisi, daha güclü kadr potensialı və nəticəyə əsaslanan stimullaşdırma son nəticədə daha keyfiyyətli səhiyyə xidməti deməkdir.

Bu səbəbdən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsünü yalnız əməkhaqlarının artırılmasına yönəlmiş sosial qərar kimi deyil, Azərbaycan səhiyyəsinin gələcək inkişafına hesablanmış strateji addım kimi qiymətləndirirəm.

Bu təşəbbüsün Prezident İlham Əliyev tərəfindən dəstəklənməsi bir daha nümayiş etdirir ki, Azərbaycanda həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır və səhiyyənin əsas dayağı olan tibb işçilərinin rifahının yüksəldilməsi dövlət siyasətinin mühüm prioritetlərindən biridir.

Bir həkim və Milli Məclisin Səhiyyə komitəsinin üzvü kimi bu qərardan xüsusi məmnunluğumu ifadə edirəm. Dövlətimizin başçısı Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya tibb işçilərinin əməyinə verilən yüksək dəyərə, onların sosial rifahının yüksəlməsinə və Azərbaycan səhiyyəsinin inkişafına göstərdikləri davamlı diqqət və qayğıya görə tibb ictimaiyyətinin nümayəndəsi olaraq təşəkkürümü bildirirəm. Əminəm ki, həyata keçirilən bu islahatın nəticəsini qarşıdakı illərdə yalnız tibb işçilərinin sosial rifahında deyil, bütövlükdə Azərbaycan səhiyyəsinin keyfiyyətində görəcəyik.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı,*
*Səhiyyə komitəsinin üzvü*

# Tibb işçilərinin əməkhaqlarının artırılması əhalinin sağlamlığının təmin olunmasına qoyulan mühüm sərmayədir

Ölkəmizdə səhiyyə sisteminin inkişaf etdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, son illərdə səhiyyə işçilərinin əməyinin stimullaşdırılması və sosial təminatının gücləndirilməsi istiqamətində mərhələli tədbirlər həyata keçirilib. 2023-cü il yanvarın 1-dən Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin aylıq vəzifə maaşları artırılıb, 2025-ci ildə minimum əməkhaqqının artırılması ilə əlaqədar tarif maaşlarında növbəti artımlar həyata keçirilib. Bununla yanaşı, səhiyyə sistemində ayrı-ayrı kateqoriyalar üzrə çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə diferensial yanaşmalar tətbiq olunub. Bu çərçivədə Səhiyyə Nazirliyinin tabeliyində olan körpələr evlərinin işçilərinin tarif maaşlarına vəzifələrdən asılı olaraq 1,5-3 dəfə artım əmsalları tətbiq edilib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Səhiyyə İşçiləri Həmkarlar İttifaqının sədri, TƏBİB-in Müşahidə Şurasının üzvü Elnara Muradova səsləndirib.

O bildirib ki, bu ardıcıl sosial siyasətin davamı olaraq Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən irəli sürülən tibb işçilərinin maddi rifahının yaxşılaşdırılması, onların əməyinin yüksək qiymətləndirilməsi və səhiyyə sistemində insan kapitalının gücləndirilməsi məqsədilə TƏBİB-in tabeliyində çalışan tibb işçilərinin əməkhaqlarının artırılması təşəbbüsünü Prezident İlham Əliyevin müsbət qarşılayaraq icrası ilə bağlı müvafiq tapşırıq verməsi dövlətimizin tibb işçilərinin əməyinə verdiyi yüksək dəyərin və onların sosial rifahına göstərdiyi davamlı diqqətin növbəti ifadəsidir: "Yeni əməkhaqqı qaydaları 2026-cı il sentyabrın 1-dən tətbiq olunur və TƏBİB-in tabeliyindəki tibb müəssisələrində çalışan 72 min 212 tibb işçisini əhatə edəcək. Əməkhaqqı artımlarının vəzifə, ixtisas, iş yükü, fəaliyyət göstəriciləri və regionlarda mövcud kadr təminatı nəzərə alınmaqla fərdiləşdirilməsi nəzərdə tutulur. Xüsusilə ilkin səhiyyə, təcili tibbi yardım, anesteziologiya-reanimatologiya xidmətləri, eləcə də regionlarda kadr çatışmazlığı müşahidə edilən dar ixtisaslar üzrə çalışan həkimlər üçün nəzərdə tutulan əlavə stimullaşdırıcı mexanizmlər peşənin cəlbediciliyinin artırılması, regionlarda kadr təminatının yaxşılaşdırılması və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır".



Elnara Muradova həmçinin vurğulayıb ki, Səhiyyə İşçiləri Həmkarlar İttifaqı tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə, onların əməyinin layiqincə qiymətləndirilməsinə və rifahının yüksəldilməsinə xidmət edən bu mühüm qərarı yüksək qiymətləndirir: "Ölkə rəhbərliyinə səhiyyə işçilərinə göstərilən davamlı diqqət və qayğıya görə dərin təşəkkürümüzü bildiririk. İnanırıq ki, tibb işçilərinin əməyinə verilən dəyər onların sosial rifahının yaxşılaşdırılması ilə yanaşı, səhiyyə sisteminin dayanıqlılığının, tibbi xidmətlərin keyfiyyətinin və bütövlükdə əhalinin sağlamlığının təmin olunmasına qoyulan mühüm sərmayədir".

# REGİONLAR

## Goranboyda 1-ci sinfə gedəcək şəhid övladları ilə görüş keçirilib

**Rayon icra hakimiyyətində (RİH) bu il 1-ci sinfə qədəm qoyacaq şəhid övladları və onların ailə üzvləri ilə görüş keçirilmişdir.**

Görüşdə RİH-in başçısı Məhərrəm Quliyev şəhid ailələrinin qayğı və təkliflərini dinləyərək şəhid övladlarına yüksək təhsil göstəriciləri, məktəb həyatında uğurlar və gələcək həyatlarında nailiyyətlər arzulamışdır. Qeyd etmişdir ki, şəhid ailələri və övladları dövlətin hərtərəfli qayğısı ilə əhatə olunmuşlar. Dövlətimiz bu ailələrin sosial rifahının və övladlarının təhsil imkanlarının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirir.



Sonra şəhid övladlarına rayon icra hakimiyyəti tərəfindən məktəbli geyimləri və dərs ləvazimatları təqdim olunmuşdur. Çıxış edən şəhid ailələrinin üzvləri göstərilən diqqətə görə minnətdarlıqlarını bildirmişlər.

*"Azərbaycan"*

## Masallı "ASAN Həyat" kompleksinin 10 yaşı tamam olur

**Kompleks Prezident İlham Əliyevin iştirakı ilə 2016-cı il sentyabrın 3-də açılıb. Burada "ASAN xidmət" mərkəzi, "ABAD" mərkəzi, Kinoklub, İncəsənət mərkəzi, ASAN İnnovativ İnkişaf Mərkəzi, ASAN kafe fəaliyyət göstərir.**

Mərkəzin fəaliyyəti operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət prinsiplərinə və vətəndaş rahatlığına hesablanıb. Fəaliyyət göstərdiyi müddət ərzində 3 milyona yaxın vətəndaş müraciəti qeydə alınıb. Mərkəzdə 400-ə yaxın xidmət həyata keçirilir. Vətəndaşlara səyyar formada da xidmət göstərilib. Səyyar xidmətlərdən bu bölgədə 300 minə yaxın vətəndaş yararlanıb.

Mərkəzə gündəlik orta müraciət sayı 1200-dən çoxdur. Fəaliyyət müddəti ərzində mərkəzdə 1000-ə yaxın könüllü məzun olub.

"ABAD" publik hüquqi şəxsin regional mərkəzlərindən biri olan Masallı "ABAD" mərkəzi regionda qida istehsalı və sənətkarlıq sahəsində fəaliyyət göstərən ailələrə dəstək göstərir. Mərkəz tərəfindən qida istehsalı ilə məşğul olan 10 ailəyə müasir avadanlıqlarla təchiz edilmiş monoblok-konteynerlər təqdim olunub. Konteynerlərdə pendir, kolbasa və sosiska, turşular, mürəbbə məhsulları istehsal edilir.

Əlavə olaraq Masallıda müxtəlif sənətkarlıq sahələrində çalışan 9 sənətkarın məhsullarının satışına dəstək göstərilir.

## Şəmkir: əkinçilikdə də, heyvandarlıqda da göstəricilər müsbətdir

**Kənd təsərrüfatının dayanıqlı inkişafına dair 2026-2030-cu illər üzrə qəbul edilmiş dövlət proqramında qarşıya qoyulan hədəflərə çatmaq üçün Şəmkirdə torpaqdan səmərəli istifadə, məhsuldarlığın və istehsalın artırılması istiqamətində mühüm addımlar atılır. 2026-cı ilin 6 ayının yekunları isə onu deməyə əsas verir ki, həmin addımlar nəticəsiz qalmır.**








Cari ilin ilk yarısında Şəmkirdə kənd təsərrüfatının inkişaf dinamikası yüksək olmuşdur. Bu dövr rayon üzrə istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi dəyəri faktiki qiymətlərlə 607 milyon 59 min manata çatmışdır ki, bu da ötən ildəkindən 2,3 faiz çoxdur. Bu rəqəmlər sadəcə quru statistika deyil. O, minlərlə şəmkirlinin gərgin əməyinin, tarlalarda və fermalarda gecə-gündüz tökülən alın tərinin göstəricisidir.

Cari mövsüm taxılçılıq sahəsində yüksək nəticələr qazanılmışdır. Rayon üzrə 5 min 303 hektar taxıl sahəsindən hər hektardan orta hesabla 37,1 sentner olmaqla 19 min 681 ton yüksəkkeyfiyyətli məhsul toplanmışdır. Bu isə ötən illə müqayisədə 27,3 faiz artım deməkdir. Cari mövsüm buğda biçilən sahə ötən ilin müvafiq dövrünə nisbətən 3,2 dəfə artaraq 1 min 442 hektara, məhsul istehsalı isə 2,8 dəfə yüksələrək 5 min 782 tona çatmışdır. Arpa istehsalı da pis olmamışdır - 3 min 861 hektardan 13 min 899 ton (keçən ilə nisbətən 3,8 faiz çox) arpa biçilmişdir.

Şəmkir həm də tərəvəzçilik və kartofçuluq rayonudur. Daxili bazarın təminatında və ixracda Şəmkir kartofu və tərəvəzi əvəzsiz rol oynayır. Cari ilin ötən dövrü ərzində tərəvəz əkilmiş sahələrin 3 min 994 hektarından rekord həcmdə - 223 min 760 ton tərəvəz yığılmışdır ki, bu da ötən illə müqayisədə 1,1 faiz çoxdur. Kartof istehsalına gəldikdə, 4 min 930 hektardan 135 min 568 ton məhsul götürülmüşdür. Rayonun meyvə bağlarında da meyvə və giləmeyvə bol olmuşdur - meyvə istehsalı 20,3 faiz artaraq 22 min 113,2 tona çatmışdır. Bostan bitkilərinin istehsalı isə 264,3 ton olmuşdur.

Yeni dövlət proqramının tələblərindən biri də əkin sahələrinin diversifikasiyası və yeni rəqabətqabiliyyətli bitki növlərinin əkin dövriyyəsinə daxil edilməsidir. Şəmkir rayonunda bu istiqamətdə də xeyli işlər görülür. Yeri gəlmişkən, qeyd edək ki, rayonun əkin strukturunda texniki bitkilərin sahəsi 1 min 187,6 hektardır. Onun da 719 hektarında günəbaxan, 379,4 hektarında şəkər çuğunduru əkilir. İnnovativ yenilik isə rayon tarixində ilk dəfə olaraq və ya yeni aqrar təşəbbüslər çərçivəsində tarlalara yeni nəfəs gətirilməsidir. Belə ki, cari il Şəmkirdə ilk dəfə olaraq 72 hektarda yerfıstığı və 17,2 hektarda xardal əkilmişdir.

Rayonda kənd təsərrüfatının on vacib sahəsi olan heyvandarlıqda da vəziyyət yaxşıdır. Əhalinin heyvandarlıq məhsulları ilə etibarlı təminatı, həmçinin emal sənayesinin xammal bazasının möhkəmləndirilməsi istiqamətində bütün göstəricilər üzrə artım qeydə alınmışdır. Hesabat dövründə diri çəkidə 5 min 306,2 ton ət, 30 min 109,7 ton süd, 18 milyon 613 min ədəd yumurta istehsal edilmişdir. İyulun 1-i vəziyyətinə rayonda qaramalın baş sayı 56 min, qoyun və keçilərin isə 245,5 mindir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə qaramal 82, inək və camışlar 53, qoyun və keçilər isə 1700 baş artmışdır.

2026-cı ilin birinci yarısının yekunları bir daha təsdiq edir ki, Şəmkir cari ildə də kənd təsərrüfatı sahəsində yüksək uğurlara imza atacaq. Söz yox ki, əldə olunan bu nailiyyət əsas etibarilə Ulu Öndər tərəfindən qoyulmuş və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən aqrar islahatların, eləcə də dövlət tərəfindən təqdim edilən subsidiyaların, texniki təminatın və güzəştli kreditlərin nəticəsidir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Burada çayların suyu enerjiyə çevrilir

**Deyirlər ki, su həyat mənbəyidir. Bu, doğrudan da belədir. Amma enerji ehtiyatlarının formalaşmasında da suyun payı var. Bu baxımdan, Azərbaycanın dağlıq relyefi və çay şəbəkəsi ölkədə su-elektrik enerjisinin (SES) inkişafı üçün əlverişli imkanlar yaradıb. Hazırda ölkənin müxtəlif bölgələrindəki SES-lə həm enerji təminatında, həm də regionların inkişafında böyük rol oynayır.**

Axan suyun gücündən elektrik enerjisi istehsal etmək ideyası müasir enerji sistemlərinin əsas istiqamətlərindən biridir. Azərbaycanda suyun enerji mənbəyi kimi istifadəsinin uzun tarixi var. İlk SES 1883-cü ildə Gədəbəyin Qalakənd kəndində - Şəmkirçayın üzərində tikilib. Stansiya Siemens qardaşlarının Qalakənd misəritmə zavodunun ehtiyacları üçün yaradılmışdı və elektrik enerjisindən misin elektroliz üsulu ilə emalında istifadə olunurdu. Sonrakı illərdə çayların hidroenerji potensialından istifadə imkanlarının genişləndirilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilib və ölkənin ayrı-ayrı bölgələrində yeni SES-lər inşa edilib.



Hidroenerji potensialında Kür və Araz yanaşı, dağlıq ərazilərdən keçən çayların da mühüm yeri var. Xüsusilə Böyük və Kiçik Qafqazın çayları üzərində yaradılan SES-lər yerli əhalinin elektrik enerjisinə olan tələbatının ödənilməsinə və ümumi enerji sisteminin gücləndirilməsinə xidmət edir. Su-elektrik stansiyalarının əsas üstünlüklərindən biri onların bərpaolunan enerji mənbəyindən istifadə etməsidir. Su dövranı təbii şəkildə yeniləndiyi üçün hidroenerji uzunmüddətli perspektivdə əhəmiyyətli enerji mənbəyi hesab olunur.

Son illər Azərbaycanın hidroenerji siyasətində işğaldan azad edilmiş ərazilər xüsusi yer tutur. Qarabağın və Şərqi Zəngəzurun dağlıq relyefi və zəngin su ehtiyatları burada SES yaradılması üçün əlverişli şərait formalaşdırır. Yenidən qurulan və istifadəyə verilən hidroenerji obyektləri regionun enerji təminatında xüsusi yer tutur və burada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərinin enerji tələbatının ödənilməsinə xidmət edir. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və digər ərazilərdə SES yaradılması diqqət çəkir.

Bu istiqamətdə həyata keçirilən layihələrin nəticələri isə artıq real göstəricilərdə özünü göstərir. Kəlbəcərdə istismara verilən yeni su-elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin həcmi hidroenerji layihələrinin region üçün əhəmiyyətini göstərən nümunələrdəndir. Fakt: 2024-cü il sentyabrın 2-də Kəlbəcərdə 22,5 MVt gücündə "Yuxarı Vəng" və 4,3 MVt gücündə "Zar" kiçik su-elektrik stansiyası istismara verilib. İstismara verildikləri tarixdən 2026-cı il avqustun 1-dək "Yuxarı Vəng" SES-də 60,1 milyon kilovat-saat, "Zar" KSES-də isə 4,6 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Göygöl rayonunda Kürəkçay üzərində yerləşən "Toğanalı" KSES də bu istiqamətdə həyata keçirilən layihələrdəndir. Ümumi gücü 4,1 MVt olan stansiya 2024-cü il sentyabrın 2-də istismara verilib. İstismara verildiyi tarixdən 2026-cı ilin avqustunadək burada 27,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.

Su-elektrik stansiyalarının əhəmiyyəti sadəcə istehsal olunan elektrik enerjisinin həcmi ilə ölçülmür. Bu stansiyalar bərpaolunan enerji mənbələrindən istifadəni genişləndirir, enerji sisteminin şaxələndirilməsinə və daha ekoloji təmiz enerji istehsalına imkan yaradır. Üstəlik də hidroenerjidən istifadə istixana effekti yaradan qazların emissiyalarının azaldılmasında və ətraf mühitin qorunmasında böyük rol oynayır.

Qeyd edək ki, Azərbaycanın enerji strategiyasında hidroenerji günəş və külək enerjisi ilə birlikdə bərpaolunan enerji mənbələrinin inkişafının əsas istiqamətlərindəndir. Ölkədə həyata keçirilən iri günəş və külək layihələri ilə yanaşı, su-elektrik stansiyalarının potensialından istifadə enerji balansının şaxələndirilməsinə xidmət edir. Energetika naziri Pərviz Şahbazovun sözlərinə görə, həyata keçirilən layihələr nəticəsində 2035-ci ilədək Azərbaycanın enerji balansında bərpaolunan enerji mənbələrinin payının təxminən 43 faizə çatdırılması nəzərdə tutulur. Bu hədəf ölkənin enerji siyasətində bərpaolunan enerjinin çəkisinin getdikcə artdığını göstərir.

Çayların axını ilə hərəkətə gələn turbinlər elektrik enerjisi istehsal etmir, həmçinin Azərbaycanın yeni enerji xəritəsinin formalaşmasına, regionların inkişafına və "yaşıl enerji" potensialının genişlənməsinə də öz töhfəsini verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda yaradılan hidroenerji obyektləri bu baxımdan həm iqtisadi, həm də strateji əhəmiyyət daşıyır.

Beləliklə, su-elektrik stansiyalarının yaradılması yeni infrastrukturun formalaşmasına, regionlarda iqtisadi fəallığın artmasına və enerji təminatının yaxşılaşdırılmasına şərait yaradır. Bəzi hidroenerji layihələri su ehtiyatlarının idarə olunması və digər təsərrüfat sahələrinin inkişafı ilə də əlaqələndirilir. Hazırda SES-lər Azərbaycanın enerji tarixinin bir hissəsi və gələcək enerji sisteminin vacib elementlərindən biri kimi ön plandadır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Sumqayıtın 237 məzunu qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb

**Sumqayıtda 2025-2026-cı tədris ilində ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək nəticə göstərən məzunlarla görüş keçirilib. Görüşdə Abşeron-Xızı Regional Təhsil İdarəsinin müdiri İlhamə Abdullayeva Sumqayıt şəhərinin ötən tədris ili üzrə ali təhsil müəssisələrinə qəbul nəticələrindən danışıb.**

Bildirilib ki, 2025-2026-cı tədris ili Sumqayıt təhsilinin uğurlu nəticələri ilə yadda qalıb. Sumqayıt məktəblərinin 237 məzunu 600-dən yuxarı, onlardan 91-i isə 650 və daha yüksək bal toplayıb. Bu göstəricilər şəhər üzrə təhsil sahəsində həyata keçirilən məqsədyönlü işlərin, müəllim və şagird əməyinin, eləcə də valideynlərin göstərdiyi diqqət və qayğının nəticəsidir.

Çıxış edən şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov yüksək nəticə göstərərək ali təhsil müəssisələrinə qəbul olunan gəncləri, onların valideynlərini və müəllimlərini təbrik edib, məzunlara gələcək həyatlarında və təhsillərində uğurlar arzulayıb.

Qeyd edib ki, təhsil hər bir dövlətin və cəmiyyətin gələcəyini müəyyənləşdirən ən mühüm sahələrdən biridir. Azərbaycanda təhsilin inkişafına göstərilən dövlət qayğısı, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir təhsil infrastrukturunun yaradılması gənclərin bilikli, savadlı və vətənpərvər vətəndaş kimi formalaşmasına geniş imkanlar açır.

Sonda ali təhsil müəssisələrinə yüksək balla qəbul olunan məzunlara hədiyyələr, təhsil sahəsində səmərəli pedaqoji fəaliyyət göstərən bir qrup təhsil işçisinə fəxri fərmanlar təqdim edilib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Məqsədimiz Şabranın yaşıl rayona çevrilməsinə dəstək verməkdir

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin BP ilə birgə elan etdiyi qrant müsabiqəsində Şabran şəhər İcmasının İnkişafı üzrə Təlim və Resurs ictimai birliyi tərəfindən reallaşdırılan "Şabranda yaşıllaşdırma aksiyalarının təşkili" layihəsi çərçivəsində rayonun Daşlıyataq və Xırdaoymaq kəndlərində yerli sakinlərin iştirakı ilə tədbirlər təşkil olunub.**



Tədbirlərdə yaşıllaşdırma aksiyalarının təşkili barədə yerli sakinlərə ətraflı məlumatlar verilmiş, iştirakçıların fikir və təklifləri dinlənilmişdir. Diskussiya və mülahizələrlə keçən görüşlərdə vətəndaşların üzərinə düşən məsuliyyət prinsipləri ətraflı izah edilmişdir.

Layihənin mövzusu aktual və bütün bəşəriyyətin xilası üçün əhəmiyyətlidir. Bu cür tədbirlərdə əhalini faydalı fəaliyyətə dəvət etməklə insanların dünyanı rahatsız edən qlobal problemlərdən biri - iqlim dəyişmələrinə təsirini azaltmaq mümkündür. İqlim dəyişiklikləri və onların canlı aləmə təsiri dünya birliyini getdikcə daha çox rahatsız etməkdədir. Bu dəyişikliyə qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması vacib və həyati əhəmiyyət daşıyır. Proses mövsümlərə xarakterik olmayan qeyri-sabit hava şəraiti ilə müşayiət edilir. Özü də bu, təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrində hiss olunur və problemlər yaradır. O səbəbdən problemin müzakirə olunması hər zaman aktualdır.

Bu tədbirlər çərçivəsində Təzəkənddə açıq meşələrin bərpası məqsədilə 304 Eldar şamı əkilmişdir. Ərazidə layihənin ideya mövzusunu təbliğ edən informativ məlumat lövhəsi quraşdırılmışdır.

*Gülsənəm ƏMRAHOVA,*
*Şabran şəhər İcmasının İnkişafı üzrə Təlim və Resurs ictimai birliyinin sədri*

*Mənəviyyat mövzusunda*

# Sonrakı peşmanlıq

**Bu yazı bəlkə də müzakirələrə səbəb olacaq. Bəyənənlərdən çox narazı qalanlar fikir bildirəcəklər. Lakin illərin təcrübəsi deyir ki, sən söylə, razı qalan payını götürəcək, qalmayan isə gülüb keçəcək.**




Vaxtilə analarımızın əksəriyyəti sadəcə orta məktəbi bitirmişdi. Amma demək olar ki, onların hamısı övladlarının təhsilinə ciddi fikir verərdi. Mütləq vaxt ayırıb onların yazmasına, oxumasına nəzarət edərdilər. Repetitorlara uşaq tapşırmaq anlayışı yox idi. Dərs əvvəlcə anaya, sonra müəllimə danışılardı. Bu yazılmamış qanun idi. Təsəvvür edirsiniz, o zaman külfətin paltarı əllə yuyulardı? Üçplitəli "maşınka"nın, odun sobasının üstündə yemək hazırlanardı. Tozsoran yox idi. Əlbəttə, ev işləri çox vaxt aparırdı. Ancaq analar övladlarına vaxt ayıra bilirdilər. Axşamlar ailə mütləq masa arxasında deyə-gülə şam edərdi.

Bu gün isə… Demək olar ki, ev işlərinin hamısı yüngülləşdirilib. Paltar yumaqdan tutmuş yemək hazırlamağa qədər. Qadınların ixtiyarına ən yeni texnologiya verilib. Amma hamı şikayətçidir. "Vaxt tapmıram, vaxtım yoxdur" sözləri dillər əzbəri olub. Bir-iki uşaqlı ailə modeli yaranıb. Yəni uşağın çoxluğu çətinlik yaradırmış və s. Üstəlik, vaxt qıtlığı ünsiyyəti aradan qaldırıb. Qonaq qarşılamaq, səmimi bir şəkildə süfrə arxasında oturmaq vərdişləri yerini restoranlara, kafelərə verib. Qonaq dəvət edəndə ona gələcəyi ictimai iaşə obyektinin adı deyilir. Aydındır ki, ictimai məkan evi, onun istiliyini əvəz edə bilməz. İnsanlar "nəzakət maskası" geyinib səmimiyyəti unudurlar. Kənardan baxan var axı!

Ən başlıcası və həyəcan təbilinə səbəb olan məqam isə analarımızın, nənələrimizin bişirdiyi löyün-löyün yeməkləri yeni qida növlərinin əvəzləməsidir. Daha çoxları evlərdə yemək bişirmir. Sifarişlə evə gələn pizza, lahmacun, tantunini və s. hərə əlinə alıb bir guşəyə çəkilərək telefonu ilə məşğul olur. Bu, yeni bir "kübarlıq" növü sayılır. Evdə yemək hazırlamaq dəbdən düşür. Özü də bunu gözəl bir ənənə kimi çəkib müxtəlif internet portallarında yerləşdirirlər. Yarış, nə yarış!

"Qonşudan dala qalma" prinsipi nədənsə xeyir əməllərə deyil, mənəviyyatımıza kölgə salan işlərə yönəlib.

Təhsil ailədən, valideyndən başlamalıdır. Necə?! Ona göstərilən diqqət və qayğı ilə. "Vaxtım yoxdur" sözü bu sahədə keçərli ola bilməz, olmamalıdır! Analar telefonları əllərindən yerə qoyub öz müqəddəs işləri, ailəsilə qayğılanmalıdır. Rəqabət çeşidli restoran, səyahət, geyim, bahalı kosmetika və estetik cərrahi müdaxilə olmamalıdır. Gələcəyimiz olan övladlarımızın təhsili, tərbiyəsi, sağlamlığı diqqət mərkəzində saxlanılmalıdır. Çünki bugünkü səhvlərimiz illər sonra geri dönüşü mümkün olmayan vəziyyətə çevrilə bilər. Ataların dediyi kimi, sonrakı peşmanlığın faydası olmur.

***Rəfiqə SADIQOVA,***
***yazıçı-jurnalist***

# "YAŞAT" Fondunun təşkilatçılığı ilə şəhid övladları Çanaqqalada

"YAŞAT" Fondunun təşkilatçılığı və Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin dəvəti ilə Çanaqqala şəhərində şəhid övladları üçün "Bir dastan, bir nəsil" mövzusunda layihə həyata keçirilir.



Bu barədə AZƏRTAC-a Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Sentyabr 1-dən 7-dək həyata keçirilən layihədə 17-18 yaşlı 26 şəhid övladı iştirak edir. Əsas məqsəd psixoloji dayanıqlığın və şəxsi inkişafın dəstəklənməsi, asudə vaxtın səmərəli təşkili, həmçinin yeni dostluq və ünsiyyət imkanlarının yaradılmasıdır.

Layihə çərçivəsində iştirakçılar Türkiyənin tarixi və mədəni irsi ilə tanış olmaq məqsədilə müxtəlif məkanları ziyarət edirlər. İlk gündə iştirakçılar İstanbulda Qız qalasını ziyarət edib, "Valide Sultan" gəmisi ilə İstanbul boğazında gəzintidə iştirak ediblər. Sonra Sultan Əhməd məscidi və Ayasofya məbədi ziyarət olunub. Növbəti gün iştirakçılar Çanaqqalanın tarixi və mədəni məkanları ilə tanış olublar. Proqram çərçivəsində Troya atı, Troya Milli Parkı, Troya muzeyi, Çanaqqala saat qülləsi, Aynalı bazar, Çanaqqala Dəniz Muzeyi və Çimənlik qalası ziyarət edilib. Şəhidimizin yadigarı Jalə Veyislinin doğum günü də qeyd olunub. Həmçinin iştirakçılar Türkiyənin tanınmış müğənnisi Özcan Dənizin konsertini də izləyiblər.

# Miqrant böhranı:

## humanizm və reallıq arasındakı uçurum

Miqrant axını dünyanın son onilliklərdə gördüyü ən böyük problemlərindən biridir. 2025-ci ilin miqrasiya mənzərəsi dünyadakı siyasi idarəetmənin uğursuzluğunu və dövlətlərin bu problem qarşısındakı acizliyini göstərən ağır bir hesabatdır.



Hazırda qlobal miqyasda 120 milyondan çox insan məcburi şəkildə didərgin düşüb ki, bu rəqəmə qaçqınlar, sığınacaq axtaranlar və köçkünlər daxildir. Dünyada doğulduğu ölkədən kənarda yaşayan beynəlxalq miqrantların ümumi sayı 304 milyon nəfərə çatıb və bu, qlobal əhalinin 3,7 faizini təşkil edir. Qanuni və təhlükəsiz miqrasiya yollarının həddən artıq məhdud olması isə insanları məcburən qeyri-qanuni və təhlükəli yollara əl atmağa sövq edir.

Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) məlumatına görə, ötən il dünya üzrə miqrasiya yollarında təxminən 8 min insan həyatını itirib və ya itkin düşüb. BMT-nin İtkin Düşmüş Miqrantlar Layihəsinin göstəricilərinə əsasən, bu, gündəlik orta hesabla 21 miqrantın həyatını itirməsi deməkdir. Əvvəlki ilin 9 minlik rekord göstəricisi ilə müqayisədə bu, rəqəmsal olaraq azalma kimi görünə bilər, lakin mövcud mənzərə tam həqiqəti əks etdirmir. Ekspertlərin fikrincə, ən azı 1500 hadisə hələ də təsdiqlənməmiş qalır ki, bu da real itkilərin qeyd olunan rəqəmlərdən daha çox olduğunu göstərir. Bununla da, dünya hələ də miqrasiya böhranının əsl miqyasını tam qavramaqda çətinlik çəkir.

2014-cü ildən bəri həyatını itirən miqrantların ümumi sayı isə 82 mini ötüb. Bu dəhşətli statistikanın arxasında faciədən birbaşa təsirlənən ən azı 340 min ailə üzvünün acısı dayanır.

Miqrasiya yolları arasında ən təhlükəlisi Avropaya aparan dəniz marşrutlarıdır. Statistikaya əsasən, miqrantlarla bağlı hər 10 ölüm və ya itkin düşmə halından ən azı 4-ü məhz bu istiqamətdə baş verir. Xüsusilə, Mərkəzi Aralıq dənizi marşrutu miqrant axınının ən təhlükəli və ölümcül keçidlərindən biri sayılır.

2026-cı ilin ilk aylarının statistikası da vəziyyətin dəyişmədiyini, əksinə, daha da pisləşdiyini göstərir. İlin əvvəlindən bəri Aralıq dənizində təxminən 1000 nəfərin öldüyü və ya itkin düşdüyü bildirilir. Bu isə son illərin ən ölümcül başlanğıclarından biri hesab olunur.

Son hadisələrdən biri isə vəziyyətin nə qədər ciddi olduğunu bir daha göstərdi. Belə ki, Liviyanın sahillərindən yola düşən, təxminən 120 nəfərin olduğu qayıq sərt hava şəraitində batdı və 80-dən çox insan itkin düşdü. Bu kimi hadisələr mütəmadi xarakter alıb. Aralıq dənizi, bəlkə də, tarixdə heç vaxt bu qədər insanın ümidsiz səyahətinin son nöqtəsinə çevrilməyib. Miqrasiya böhranının ən dəhşətli tərəfi elə "görünməz gəmi qəzaları"dır. Heç bir qeydiyyatın aparılmadığı və cəsədlərin tapılmadığı bu hadisələr bəşəriyyətin tarixə düşməyən böyük humanitar fəlakətini əks etdirir.

Son illər miqrasiya marşrutlarının coğrafiyası dəyişdikcə, daha riskli istiqamətlər ön plana çıxmağa başlayıb. Xüsusilə, 1200-dən çox ölüm faktının qeydə alındığı Qərbi Afrika marşrutu bu təhlükənin bariz nümunəsidir. Asiyada isə mənzərə daha dramatikdir. Belə ki, Myanmadakı zorakılıqdan xilas olmağa çalışan Rohingya müsəlmanları və Banqladeşdəki düşərgələrdə çıxılmaz vəziyyətdə qalan qaçqınlar dəniz yolu ilə ən təhlükəli səyahətlərə üz tuturlar. Bütün bu faktlar tək bir həqiqəti təsdiqləyir ki, miqrasiya bir çoxları üçün yeganə məcburi çıxış yoludur.

Avropa hər zaman insan hüquqlarının müdafiəsini önə çəkir. Lakin miqrasiya məsələsində bu prinsiplər özünü doğrultmur. Sərhədlərin bağlanması, sığınacaq almağın çətinləşməsi və miqrantların geri qaytarılması onların vəziyyətini daha da ağırlaşdırır. Bəzən insanların ölkəyə daxil olmasına belə icazə verilmir ki, bu da beynəlxalq sığınacaq hüququnun pozulmasıdır. Aydın məsələdir ki, təhlükəsizlik və idarəetmə vacibdir. Amma sual yaranır, insan həyatından daha vacib nə ola bilər?

2022-ci il Ukraynadakı hadisələr zamanı Avropanın nümayiş etdirdiyi genişmiqyaslı dəstək və milyonlarla insana verilən müvəqqəti qoruma statusu mühüm bir humanitar addım idi. Lakin bu yanaşma Avropanın miqrasiya siyasətindəki aşkar ikili standartları da üzə çıxardı. Belə ki, Afrika və Yaxın Şərqdən gəlib sığınacaq axtaranlara qarşı tətbiq edilən sərt sərhəd rejimi, çətinləşdirilmiş prosedurlar və soyuq münasibət humanizmin hüdudlarının harada bitdiyini göstərir. Belə bir ayrı-seçkilik bəşəri dəyərlərin coğrafi və siyasi maraqlara qurban verilməsindən başqa bir şey deyil.

Miqrantların həyatına dərindən baxdıqda, üzləşdikləri mənzərə daha ağrılı görünür. Onlar üçün çətinliklər üz tutduqları ölkələrdə də ağır sınaqlarla davam edir. Hüquqi maneələr, cəmiyyətdən təcrid olunma, işsizlik və zaman-zaman rast gəldikləri açıq düşmənçilik bu insanların həyatını dözülməz edir. Onu qeyd edək ki, bir çox miqrantın "ümid qapısı" kimi gördüyü Avropa, əslində, yeni və daha mürəkkəb problemlərin başlanğıcıdır.

Bəs dünya bu faciələrə daha nə qədər tamaşa edəcək? Görünən odur ki, ən böyük problem bəşəriyyətin başqasının ağrısına getdikcə alışması və bu dramı sadə bir statistikaya çevirməsidir.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Höte İnstitutunun Rusiyadakı filialları bağlanacaq

## Bundan əvvəl Berlində "Rus Evi"nin fəaliyyəti qadağan edilmişdir

Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov Almaniya hökumətinin Berlindəki "Rus Evi" ilə bağlı müqaviləni ləğv etmək qərarından sonra Höte İnstitutunun ölkədəki hər üç filialının bağlanacağını bildirib.







Sergey Lavrov bunu sentyabrın 3-də Vladivostokda keçirilən Şərq İqtisadi Forumunda (ŞİF) elan edib. Çıxış Xarici İşlər Nazirliyinin "YouTube" kanalında yayımlanıb. Nazir bildirib ki, "almanların burada - Moskvada, Sankt-Peterburqda və Yekaterinburqda Höte İnstitutunun filialları var. Əlbəttə ki, mədəniyyət mərkəzimiz qovulduqdan sonra onlar bağlanacaq. Əks halda, özümüzə hörmət etməmiş olarıq". S.Lavrovun bu bəyanatı Almaniya hakimiyyətinin bir gün əvvəl Rusiyaya qarşı sanksiyaların sərtləşdirildiyini elan etməsindən və avqust ayında Leypsiq hava limanında baş verən dron hadisəsində Moskvanı günahlandırmasından sonra verilib.

Almaniya hökuməti cavab tədbirlərinin bir hissəsi olaraq Bonn şəhərində yerləşən sonuncu Rusiya baş konsulluğunu 18 sentyabr tarixinə qədər bağlamaq və Berlindəki "Rus Evi"ni tənzimləyən müqaviləni ləğv etmək qərarına gəlib. Bu barədə Almaniyanın xarici işlər naziri Yohan Vadeful bildirib. Eyni müqavilə Höte İnstitutunun Rusiyadakı işini tənzimləyirdi. Bundan əlavə, Berlin Rusiya vətəndaşlarının girişinə nəzarəti gücləndirəcək və Rusiyanın "kölgə donanması"na qarşı tədbirləri gücləndirəcək.

Almaniyalı müstəntiqlər Leypsiq hava limanında pilotsuz təyyarə ilə hücum cəhdində iki şübhəlini müəyyən ediblər. Bu barədə "Die Süddeutsche Zeitung" qəzeti, eləcə də NDR və WDR televiziya kanalları məlumat yayıb. Bildirildiyinə görə, şübhəlilər hazırda Latviya vətəndaşlığı olan rusiyalı və Rusiya vətəndaşlığı olan belarusdur. Rusəsilli şəxs planlaşdırılan hücumun logistik təşkilatçısı və təlimatçısı hesab olunur və onun Rusiya kəşfiyyat orqanları ilə əlaqələrinin olduğu deyilir. O, iyulun sonunda Berlin - Brandenburq hava limanına uçub, sonra icarəyə götürülmüş avtomobillə Leypsiq istiqamətində hərəkət edib. Planlaşdırılan hücumdan iki gün əvvəl o, Almaniyanı tərk edərək eyni hava limanından geri qayıdıb. Belaruslunun isə əvvəllər başqa cinayətlərə görə məhkumluqları olub. O, ölkəyə aprelin sonunda Minskdə verilmiş İtaliya turist vizası ilə gəlib.

Almaniyanın daxili işlər naziri Aleksandr Dobrindt hücum cəhdinin peşəkarcasına planlaşdırıldığını və həyata keçirildiyini, bunun üçün "yüksəksəviyyəli texniki təcrübə və əhəmiyyətli təşkilati xərclər" tələb olunduğunu qeyd edib. O, hücumda birbaşa iştirak edənləri "aşağı səviyyəli agentlər" adlandırıb.

Leypsiq-Halle Hava Limanı Almaniyanın ən vacib yük hava limanlarından biridir və eyni zamanda hərbi nəqliyyat üçün əsas logistika mərkəzidir. Bu hava limanında Ukraynaya məxsus An-124 yük təyyarəsinə qarşı iddia edilən təxribat cəhdi avqustun 4-də baş verib. Müstəntiqlərin sözlərinə görə, təxribatda cən azı 3 dron iştirak edib. Onlardan biri partlayıcı maddələrlə silahlanmış vəziyyətdə bir neçə Ukrayna yük təyyarəsinin yaxınlığında aşkar edilib. İkinci, ehtimal ki, birinci aşkar edildikdən bir neçə dəqiqə sonra DHL yük təyyarəsinə çırpılıb. Üçüncü dron hadisədən 10 gün sonra - avqustun 14-də hava limanının qərbindəki bir sahədə tapılıb. Müstəntiqlər uçuş aparatının yaxınlığında təxminən 50 qram maddə - heksogen aşkar ediblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti 23L
"Azərbaycan Nəşriyyatı" MMC
4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3318
Sifariş 1122

Qiyməti 60 qəpik